PAŞA Bank

PAŞA Bank
2015-ci ilin İllik Hesabatı

MÜNDƏRİCAT

ÜMUMİ MƏLUMAT 5
"PAŞA Bank" ASC haqqında 6
"PAŞA Holdinq" MMC haqqında 8
Baxış, Amal və Strateji Məqsədlər 10
Əsas Maliyyə Göstəriciləri 12

RƏHBƏRLİK 14
Müşahidə Şurası sədrindən və İdarə Heyətinin sədrindən ön söz 16
Rəhbərliyin tərkibi 20

QLOBAL MAKROİQTİSADİ MƏNZƏRƏ VƏ AZƏRBAYCAN İQTİSADİYATI 28

2015-ci İLDƏ FƏALİYYƏT 34
Əsas Bank seqmentləri 36
Dayrekt bankçılıq 36
Korporativ və kommersiya bankçılığı 38
İnvestisiya bankçılığı 40
Xəzinədarlıq 41
İnstitusional bankçılıq 42
Private bankçılıq 43
Riskləri idarəemə 44

BEYNƏLXALQ FƏALİYYƏT 46
Ölkədaxili və beynəlxalq inkişaf 48
Dayanıqlı iqtisadi inkişafa dəstək 50
Beynəlxalq nüfuz 52
Dəstəkləyici bölmələr 54
Faktorinq 54
İnformasiya texnologiyaları 54

KORPORATİV SOSİAL MƏSULİYYƏT 56

MALİYYƏ HESABATLARININ İCMALI 62

Son illər ərzində müşahidə olunan Azərbaycan iqtisadiyyatının sabit inkişafına müvafiq olaraq "PAŞA Bank" ASC iqtisadi artımın rəhni olan kənd təsərrüfatı, nəqliyyat, tikinti və ticarət sahələrində müştəri bazasını genişləndirdi, ölkəyə və onun iqtisadiyyatına yeni zirvələrə birgə çatmaq üçün töhfə verməyə sadiqliyini bildirdi.

ÜMUMİ MƏLUMAT

“PAŞA Bank” ASC HAQQINDA

Dəyər yaradan bank

Azərbaycanın aparıcı korporativ maliyyə təsisatı olan “PAŞA Bank” ASC tamçeşidli (korporativ və investisiya bankçılığı, ticarətin maliyyələşdirilməsi və aktivləri idarəetmə) maliyyə xidmətlərini böyük korporasiyalardan kiçik və orta müəssisələrədək geniş müştəri bazasına göstərmək məqsədilə 2007-ci ildə təsis edilib. Azərbaycan iqtisadiyyatının son illər sabit inkişafına müvafiq olaraq “PAŞA Bank” ASC iqtisadi artımın rəhni olan kənd təsərrüfatı, nəqliyyat, tikinti və ticarət sahələrində müştəri bazasını genişləndirib. Azərbaycanda yaradılmış, tikinti, daşınmaz əmlakın qurulması, sığorta, səyahət, əyləncə və digər sahələrlə məşğul olan “PAŞA Holdinq” MMC-nin bir hissəsi kimi “PAŞA Bank” ASC sözügedən sahələrdə holdinqin fəaliyyətinə dəstək verən mühüm maliyyə vəzifəsini öz üzərinə götürüb.

Baş qərargahı Bakıda yerləşən “PAŞA Bank” ASC-nin Azərbaycanda kiçik və orta sahibkarlıq müəssisələri (KOS) üzrə dörd filialı və altı biznes mərkəzi vardır. Buna əlavə olaraq Gürcüstan və Türkiyədə törəmə bankları fəaliyyət göstərir. “PAŞA Bank” ASC-nin uzunmüddətli baxışı Bakı, Tiflis və İstanbul arasında artan ticarət və işgüzar əqdləşmə axınını asanlaşdıracaq bir biri ilə əlaqəli bank əməliyyatlarını ərsəyə gətirməklə region miqyasında aparıcı təsisata çevrilməkdir.

Baş qərargahda, dörd KOS filialında, Bakıdakı dörd biznes mərkəzində, ölkənin aparıcı şəhərləri olan Gəncə və Zaqatalada iki regional filialda toplam 414 işçi heyət üzvü çalışır. 2013-cü ilin fevral ayında PAŞA Bank Georgia ilk törəmə bankı açıldı. 2014-cü ilin dekabr ayında Türkiyənin bank fəaliyyətini tənzimləyən qurumu “PAŞA Bank” ASC-ə ölkədə fəaliyyətə başlamaq icazəsini verdi və 2015-ci ilin mart ayından bank Türkiyədə PASHA Yatırım Bankası A.Ş. adı ilə fəaliyyət göstərir.

Toplam səhm kapitalı üzrə Azərbaycanın ən nəhəng özəl bankı

“PAŞA Bank” ASC toplam səhm kapital baxımından Azərbaycanın ən böyük bankıdır, aktivlərin həcmi baxımından isə ölkədəki ilk beş bank arasında qərarlaşıb. 2015-ci ilin sonuna olan vəziyyətə əsasən “PAŞA Bank” ASC 2,3 milyard manat həcmində toplam aktivlərə, 333 milyon manat həcmində isə nizamnamə kapitalına malik idi.

“PAŞA Bank” ASC-nin davamlı korporativ inkişaf göstəriciləri beynəlxalq maliyyə dairələri və reytinq agentlikləri tərəfindən etiraf edilib. Beləliklə, Standard & Poor’s və Fitch Ratings reytinq agentlikləri “PAŞA Bank” ASC-ə ‘BB-’ uzunmüddətli və ‘B’ qısamüddətli kredit reytinqi dərəcəsini təyin ediblər. Bununla yanaşı “PAŞA Bank” ASC EMEA Finance jurnalının Europe Banking Awards 2015 təltifi üzrə Azərbaycanın ən yaxşı bankı (The Best Bank of Azerbaijan) adına layiq görülüb. Azərbaycanda dayanıqlı biznes anlayışına rəvac vermək məqsədilə “PAŞA Bank” ASC davamlı səyləri ilə maraq dairələrinin fəallığına dəstək verməyə müvəffəq olub.

Səhm bölgüsü

“PAŞA Holdinq” MMC HAQQINDA

Törəmə qurumları vasitəsilə “PAŞA Holdinq” MMC Azərbaycan iqtisadiyyatının əsas inkişaf dayaqları olan bank, sığorta, tikinti, daşınmaz əmlakın qurulması və turizm sahələrinə sərmayə yatırır.

CƏMİ AKTİVLƏR:	3 milyard manat
CƏMİ SƏHMDAR KAPİTAL:	800 milyon manat
İŞÇİ HEYƏT:	2,500 şəxsdən çox

2006-cı ildə təsis edilmiş “PAŞA Holdinq” MMC işgüzar fəaliyyətini effektiv idarəetmə, güclü korporativ idarəçilik və düşünülmüş investisiya qərarlarına əsaslanan möhkəm bünövrə üzərində qurub.

Törəmə qurumları vasitəsilə “PAŞA Holdinq” MMC Azərbaycan iqtisadiyyatının əsas inkişaf dayaqları olan bank, sığorta, tikinti, daşınmaz əmlakın qurulması və turizm sahələrinə sərmayə yatırır.

“PAŞA Holdinq” MMC-nin iki növ investisiya aktivi vardır: holdinqə mənsub olan şirkətlərdə nəzarətedici səhm payı və qapalı (özəl) minoritar səhm payı şəklində iştirak.

PASHA Holding

PASHA Insurance

PAŞA Sığorta səhmdarlar arasında bölüşdürülmüş kapital həcmi 50 milyon manat təşkil edən açıq səhmdar cəmiyyətdir. PAŞA Sığorta korporativ və fərdi müştərilərə 36 növ məcburi və könüllü sığorta xidmətini göstərir.

PASHA Travel

PASHA Travel şirkətlərə və fərdi şəxslərə yüksəkkeyfiyyətli səyahət xidmətlərini göstərmək üçün 2003-cü ildə təsis edilib.

PASHA Construction

PAŞA İnşaat səhmdarlar arasında 10,4 milyon manat həcmində bölüşdürülmüş kapitala malik olan universal tikinti və inşaat şirkəti kimi 2006-cı ildə təsis edilib. Şirkət Bakıdakı mötəbər layihələrin bir neçəsini həyata keçirib, tamamlanmış inşaat layihələri portfeli bir milyon kvadrat metrdən çoxdur, icra edilməkdə olan tikinti layihələri üzrə əlavə bir milyon kvadrat metrdən çox sahə nəzərdə tutulur.

PASHA Life

PAŞA Həyat "PAŞA Sığorta" adı ilə 2010-cu ildə yaradılıb, səhmdarlar arasında 40,25 milyon manat həcmində bölüşdürülmüş kapitala malikdir. Şirkət Azərbaycan qanunvericiliyi çərçivəsində müəyyən edilmiş qaydalara uyğun fəaliyyət göstərir.

PASHA Capital

PAŞA Kapital fərdi və institusional investorlara broker, diler və aktivləri idarəetmə xidmətlərini göstərmək məqsədilə 2012-ci ilin iyun ayında təsis edilib. 250 min manat həcmində kapitalı səhmdarları arasında bölüşdürmüş şirkət broker və diler kimi fəaliyyət göstərmək üçün Qiymətli Kağızlar üzrə Dövlət Komitəsindən müvafiq lisenziyaları almışdır. 2012-ci il 31 avqust tarixində "PAŞA Kapital" MMC Bakı Fond Birjasının üzvü olmuşdur.

KAPİTAL BANK

Əmanət Bankının varisi olan Kapital Bank 140 ildən çoxdur fəaliyyət göstərir. Azərbaycandakı maliyyə təsisatları arasında ən geniş şəbəkə Kapital Banka məxsusdur. Universal bank olaraq Kapital Bank 2 milyondan çox fərdi müştəriyə və 22 mindən çox hüquqi şəxsə xidmət göstərir.

BAXIŞ, AMAL VƏ STRATEJİ MƏQSƏDLƏR

Baxış

Baxışımız Azərbaycanın aparıcı banklarından biri olmaqda dayanır. Ən yüksək etik standartların saxlanılmasına, mükəmməl işgüzar nüfuzun qorunmasına, dünya səviyyəli məhsul və xidmətlərin göstərilməsinə və nümunəvi maliyyə gücünə sadiqik.

Amal

- Müştərilərimizin tələbatına uyğunlaşdırılmış yüksəkkeyfiyyətli xidmət və məhsulları göstərməklə müştərilərimizin inkişafına töhfə vermək;
- Yüksək səriştəyə malik olan və işinə sadiq heyətin işə cəlb edilməsi, təlimləndirilməsi və yetişdirilməsi;
- İctimaiyyətin rifah və mədəni inkişafına dəstək vermək;
- Güclü maliyyə mövqeyini qorumaq;
- Əməliyyatlarımızın şəffaf və düşünülmüş tərzdə aparılması.

Strateji məqsədlər

- Kapitalın və təşkilatin səmərəliliyinin möhkəmləndirilməsi;
- Əsas bacarıqların gücləndirilməsi;
- Bazar mövqeyinin genişləndirilməsi;
- Müstəri xidmətlərinin dəstəklənməsi;
- Qrupdaxili qarşılıqlı fəaliyyətin axıcılığı.

MALİYYƏ VƏ ƏMƏLİYYAT GÖSTƏRİCİLƏRİ

Qəliz bazar şəraitində "PAŞA Bank" ASC mənfəətliyini qorudu və 2015-ci ilin maliyyə hədəflərinə nail oldu.

Əsas maliyyə göstəriciləri (milyon AZN)

	2013	2014	2015
Ümumi aktivlər	704.1	1,273.3	2,292.7
Kreditlər	329.2	538.9	902.2
Əmanətlər	302.8	703.1	1,374.1
Müddətli əmanətlər	119.3	144.8	472.9
Cari hesablar	183.5	558.2	901.2
Səhmdar capital	234.9	323.7	432.4
Faiz gəliri	54.8	64.3	100.3
Xidmət haqqı və komissiya gəliri	6.0	7.4	12.7
Əməli mənfəət	51.6	60.2	116.3
Ümumi əməliyyat xərcləri	22.6	29.3	47.4
Xalis mənfəət	12.0	-2.8	14.4

Əsas maliyyə əmsalları (%)

	2013	2014	2015
Kreditlərin ümumi aktivlərə nisbəti	46.8	42.3	39.4
Kreditlərin əmanətlərə nisbəti	1.1	76.6	65.7
Qeyri-işlək kreditlərin xüsusi çəkisi	7.91	10.76	3.82
Müddətsiz əmanətlərin ümumi əmanətlərə nisbəti	60.6	79.4	65.6
Səhmdar kapitalın ümumi passivlərə nisbəti	50.0	34.1	23.2
Kapital adekvatlığı əmsalı	36	33	17

Başlıca maliyyə göstəriciləri

Əməliyyat göstəriciləri

*Göstəricilər yalnız "Paşa Bank" ASC-i əks etdirir.

2015-ci ildə “PAŞA Bank” 2,3 milyard manat həcmində, bank sektorunun 6.1% nisbətində toplam aktivlərə malik idi.

RƏHBƏRLİK

MÜŞAHİDƏ ŞURASI SƏDRİNDƏN VƏ İDARƏ HEYƏTİNİN SƏDRİNDƏN ÖN SÖZ

Əziz həmkarlar, müştərilər və payçılar,

2015-ci ildə qlobal miqyasda, Azərbaycanda və "PAŞA Bank" ASC-də fəaliyyətimizə aid baş vermis hadisələr aşağıda xülasə edilir.

2015-ci il ərzində ümumdünya miqyasında iqtisadi fəaliyyət sönük idi.

Qlobal dəyişkənliklərin artması və iqtisadi artımın səngiməsi səbəbindən bəzi inkişaf etmiş ölkələrin iqtisadi mənzərəsi pisləşdi. Inkişaf edən ölkələrdə, xüsusilə Çində iqtisadiyyatın yavaşıması, əmtəə qiymətlərinin aşağı olduğu bir mühitin davam etməsi, Federal Ehtiyatlar Sisteminin (Fed) banklara borcvermə faiz dərəcəsini qəfildən artırması qlobal gündəmin önündə gələn məsələlər idi. Neft və digər əmtəə qiymətlərinin kəskin aşağı düşməsi nəticəsində formalaşan iqtisadi sistemlərdə risklər yüksək səviyyədə qaldı. Bu hadisələr həm inkişaf etmiş, həm inkişaf etməkdə olan ölkələrdə maliyyə şəraitini sərtləşdirdi, kredit risklərini artırdı, riskə açıqlıq səviyyəsini aşağı saldı.

Neft qiymətlərinin aşağı düşməsi səbəbindən Azərbaycan iqtisadiyyatı mənfi təsirlərə məruz qaldı.

Neft hasil edən ölkələrin hər birində olduğu kimi 2015-ci ildə neft qiymətlərinin kəskin aşağı düşməsi Azərbaycan iqtisadiyyatında da çətinliklər yaratdı. Neft qiymətinin çökməsi və milli valyutanın ucuzlaşması özəl sektorun alıcılıq qabiliyyətinin və büdcə xərclərinin daralması ilə nəticələndi. Ölkə hüdudlarından kənarda yaranmış problemlər böyüdükcə Azərbaycan üçün özünü firavan yurd kimi bərqərar etmək getdikə çətinləşdi. Beləliklə, manatın şiddətli dərəcədə devalvasiyası qaçılmaz oldu. Məsələnin müsbət tərəfinə gəldikdə, milli valyutanın kəskin ucuzlaşması büdcə kəsirini tarazlamağa, bununla da ölkənin xarici valyuta ehtiyatlarını qorumağa imkan yaratdı. Digər tərəfdən isə pul axınları sistemində, xüsusilə bank sahəsində çətinliklər yarandı. Nəticədə 2015-ci ildə ölkə iqtisadiyyatı cəmi 1.1% faiz artdı.

Maliyyə sabitliyi qarşısındakı risklərin artması və qlobal tələbin zəifləməsi özəl sektora verilən kreditlərin həcmini mədudlaşdıraraq bankların balans göstəricilərini daha da pisləşdirdi. Azərbaycan bankları milli valyutanın təxminən 98%-lik devalvasiyaya uğraması nətiəsində ciddi çağırışlarla üzləşdilər. 2015-ci ilin əvvəlində bank aktivlərinin 35%-nin xarici valyutada ifadə edilməsi nəzərə alındıqda, milli valyutanın dəyərdən düşdüyü bir şəraitdə ölkənin bank sektorunda nominal göstəricilər baxımından artım müşahidə edildi. Həmin il kredit portfelinin 17.1% artaraq 21.7 milyard manat təşkil etməsi bank sektoru üzrə xalis aktivlərin nominal baxımdan 38.6% böyüməsinə səbəb oldu. Lakin real göstəricilər baxımından manatın devalvasiyası nəticəsində yaranan fərq xaric edildikdə əvvəlki illə müqayisədə aktivlərin artımı mənfi rəqəmlə ifadə edildi, kredit portfeli isə 9.7% daraldı.

İqtisadi səngimənin törətdyi təzyiqlər nəticəsində bəzi banklar işçi heyəti ixtisara salmaqla və filial şəbəkəsinin fəaliyyətini təkmilləşdirməklə əməliyyat xərclərini azaltmağa başladılar. Əlavə olaraq, Azərbaycan Respublikasının Mərkəzi Bankı nizamnamə kapitalının minimum məbləği tələbinə cavab verməyən, borc təəhhüdlərini yerinə yetirmək qabiliyyətində olmayan və cari əməliyyatlarını sağlam və düşünülmüş qaydada icra edə bilməyən altı bankın lisenziyasını il ərzində geri çağırdı.

"PAŞA Bank" ASC ilin yekunları üzrə uğurlu maliyyə nəticələrinə imza atdı.

İqtisadi mühitdəki dalğalanmaya və mənfi nəticə verən qeosiyasi vəziyyətə baxmayaraq "PAŞA Bank" ASC 2015-ci ilin maliyyə hədəflərinə

nail oldu. İl ərzində "PAŞA Bank" ASC aktivlər üzrə bazar payını 0.5% artıraraq 2.3 milyard manata çatdırdı ki, bu da bazarın 6.1%-i təşkil etdi. Bankın kredit portfeli 33% artaraq 722 milyon manat təşkil etdi. Eyni zamanda kredit portfelinin keyfiyyətinin pisləşməsi müşahidə olunmamışdır, qeyri-işlək kreditlərin xüsusi çəkisi 2014-cü ilin dekabr ayı ilə müqayisədə 6.1%-dən 5%-dək aşağı salındı. İllik əsasda 101% artımın baş verdiyi əmanət bazasında da müsbət nəticə qeyd edilmişdir. 2015-ci ilin sonunda "PAŞA Bank" cəlb etdiyi əmanətlərin cəmini özəl kommersiya bankları arasında ən yüksək həcmdə, 1.3 milyard manat səviyyəsində göstərdi. Bank onun il ərzində böyüməsinə dəstək vermis likvidlik əmsalını 53% səviyyəsinə saxlamağa müvəffəq oldu.

"PAŞA Bank" ASC əməli effektivliyini də yüksəltdi. 2015-ci ilin dekabr ayında bank xərclərinin gəlirlərə nisbəti bazar üzrə ən yüksək göstərici olan 31% təşkil etdi. İlin yekunlarına əsasən möhkəm kapital mövqeyini qoruyan, kapital üzrə çatarlılıq (adekvatlıq) əmsalını 17%-ə çatdıran "PAŞA Bank" ASC 3 milyon manat həcmində mənfəət bildirdi.

Yerli bankların 2015-ci ildə qarşılaşdığı çağırışlara baxmayaraq "PAŞA Bank" ASC müştərilərinə dünya səviyyəli bank xidmətlərini göstərməklə dayanıqlı inkişafı nəzərdə tutan baxışına sadiq qalmışdır. Bankın üçillik plan dövrünün ilk ilinin 2015-ci ilə təsadüf etməsi səbəbindən yeni, önləyici strateji plan uğurla işlənmişdir. "PAŞA Bank" ASC-nin üzərimizə gələn il üzrə strateji prioritetləri plandakı məqsədlərə cavab vermək üçün yaradılmış xüsusi layihələrdə və təşəbbüslərdə acıqlanmışdır.

2015-ci ildə Fitch Ratings beynəlxalq reytinq agentliyi "PAŞA Bank" ASC-nin reytinqini 'B+'-dən 'BB-'-dək artırmışdır. Bu, regionun hazırda üzləşdiyi makroiqtisadi çağırışlara baxmayaraq "PAŞA Bank" ASC-nin real sektor üçün mötəbər maliyyə təsisatı və etibarlı tərəfdaş olmasına dəlalət edən ciddi işarədir.

"PAŞA Bank" ASC işçi heyətinin əldə etdiyi nəticələrdən məmnunolduğunu artıq qürurla bəyan edə bilər. Hesabat ilinin əvvəlində qoyulmuş hədəflərin təxminən hər birinə nail olmuşuq, strateji əhəmiyyət kəsb edən layihələrdə və təşəbbüslərdə müəyyən edilmiş əsas zirvələrə çatmışıq. 2015-ci ildə "PAŞA Bank" ASC ayrı-ayrı struktur vahidləri arasında daha dəqiq vəzifə/məsuliyyət bölgüsünə imkan yaradan yeni təşkilat strukturunu tətbiq etdi və müştərilərə daha yaxşı yönəlmiş xidmət şəbəkəsini işə saldı. İl ərzində "PAŞA Bank" ASC insan resursları və maliyyə bölmələrini resursların daha səmərəli bölgüsünə və daha rəvan, daha təkmil təşkilatlanmaya yol açan tərzdə möhkəmləndirdi. Əlavə olaraq bank fəaliyyətdə ardıcıllığı idarəetmə sistemini tətbiq etdi, plan və büdcə proseslərini daha səlis şəklə saldı.

"PAŞA Bank" ASC strateji mövqeyini regional ticarət və investisiya axınlarından bəhrələnmək istiqamətində müəyyən edib. Yaxın keçmişdə bank beynəlxalq bazarlarda iştirakını bərqərar etmək üçün bir neçə mühüm addım atıb. Türkiyənin TAIB Bank təsisatında nəzarətedici səhm payını almaqla, PASHA Bank Georgia qurumunu təsis etməklə bank sürətlə böyüyən bölgədəki mövqeyini möhkəmləndirdi. Fəaliyyət coğrafiyasının genişlənməsi ilə bağlı bu kimi səylər Azərbaycana həmçinin daha çox birbaşa xarici investisiya cəlb etmək üçün müvafiq vəsaiti hazırlıqlı vəziyyətə gətirir.

Sosial məsuliyyət işimizin özəyidir.

2015-ci ildə bank fəaliyyətini həyata keçirməklə yanaşı "PAŞA Bank" ASC ölkənin firavanlığına və dayanıqlı inkişafına töhfə vermək məqsədilə sosial məsuliyyət səylərinə davam etdi. Klassik korporativ sosial məsuliyyət

modelindən maraqlı tərəflərin daha fəal cəlb edilməsi modelinəkeçid strategiyamıza uyğun olaraq dayanıqlılığa yönəlmiş fəaliyyətə daha çox diqqət yetirməyə başladıq. Bu yanaşmaya, cəmiyyətin uzunmüddətli dayanıqlı inkişafı naminə seçdiyimiz yola səhmdarlarımızn və payçılarımızn da qoşulmasını təmin edən layihələrin ərsəyə gətirilməsi və seminarların təşkil edilməsi daxildir. Bu qəbildən olan çoxsaylı təşəbbüslərimiz arasında ən vacibi Müəssisələrin Dayanıqlı İnkişafı Proqramıdır (MDİP). Proqram, təsisçisi gənc nəsil olan müəssisələr qurmaqla, gənc qadınlara və kişilərə sahibkarlıq və işgüzar fəaliyyət mövzularında təlim keçməklə KOS-ların inkişafına rəvac vermək məqsədini daşıyır. 2015-ci ilin sonunda 120 perspektivli sahibkar MDİP üzrə təlimlənnmişdir və bununla da innovativ müəssisələri ilə ölkəyə daha parlaq gələcəyi vəd etmişdir.

2016-cı ilə doğru...

Aparıcı beynəlxalq təşkilatların proqnozlarına əsasən, Azərbaycanın 2016-cı ildə müsbət iqtisadi artım açıqlaması gözlənilir. Dünya Bankı, iqtisadiyyatı şaxələndirən, resurs bölgüsünü təkmilləşdirən və korporativ idarəçiliyi gücləndirən institusional struktur islahatlar, həmçinin qeyri-neft sektoruna qoyuluşu davam edən investisiya hesabına ölkə iqtisadiyyatının bərpasını bəyan edir. Azərbaycan hökuməti, işgüzar mühitin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirməklə və müxtəlif səylər vasitəsilə sahibkarlığa rəvac verməklə iqtisadiyyatı şaxələndirmək üçün təkliflərin hazırlanmasına artıq başlayıb. İnanırıq ki, hökumətin yeni islahatlar siyasəti iqtisadi sabitliyin bərpasına yardım edəcək və dayanıqlı, uzunmüddətli iqtisadi artıma yol açacaq. Bununla belə, 2016-cı ildə ölkə banklarının çağırışlarla üzləşməyə davam edəcəklərini gözləyirik.

"PAŞA Bank" ASC üzərimizə gələn dövrdə təşkilati səmərəliliyin artırılması və əsas bacarıqların möhkəmləndirilməsi strategiyasına əməl etməyi planlaşdırır. Bu sahələr üzrə nəzərdə tutulmuş bir neçə vacib layihənin yekun mərhələsi 2016-cı ildə başlayacaq. Ölkənin iqtisadiyyatın şaxələndirilməsi strategiyasına uyğun olaraq yerli qeyri-neft sektorunu diqqət mərkəzimizdə saxlamağa davam edəcəyik.

İşçilərimizin, müştərilərimizin və işgüzar tərəfdaşlarımızın cari dəstəyi və sədaqəti sayəsində "PAŞA Bank" ASC-nin 2016-cı ildə yeni hədəflərə çatacağına qətiyyətlə inanırıq. Bu uğurun arxalandığı möhkəm bünövrənin qurulmasında bizə yardım etmiş bütöv PAŞA Bank ailəsinə, həmçinin üzümüzə gələn illərdə nail olacağımız uğurlarla bizi müşaiyət edən müştərilərimizə və payçılarımıza dərin minətdarlığımızı bildirmək istəyirik.

Hörmətlə,

Mir Camal Paşayev
Müşahidə Şurasının sədri

Taleh Kazımov
İdarə Heyətinin sədri

RƏHBƏRLİYİN TƏRKİBİ

"PAŞA Bank" ASC-nin rəhbərliyi

Mir Camal Paşayev
Müşahidə Şurasının sədri

Mir Camal Paşayev 1993-cü ildə Moskva Dövlət Universitetinin Fizika fakültəsini bitirib, 1996-cı ildə texniki elmlər üzrə magistr dərəcəsi almaq məqsədilə Kaliforniya Universitetinə daxil olub və bundan sonra, 1998-ci ildə Vaşinqtondakı "Amerika Universiteti"-nin biznesin idarə edilməsi üzrə magistr dərəcəsini alıb. 1999-cu ildə Azərbaycan Respublikasının Mərkəzi Bankının məsləhətçisi vəzifəsini icra etmək üçün Bakıya gəlməzdən əvvəl 1998-ci ildə "Mobil Korporeyşn" şirkətinin Dallas və Vaşinqton ofislərində biznes layihələrinin məsləhətçisi vəzifəsində işləyib. 2000-ci ildə o, Avropa Yenidənqurma və İnkişaf Bankında (AYİB) maliyyə analitiki kimi işə başlayıb, tezliklə infrastruktur layihələri üzrə bankir vəzifəsinə yüksəlib. 2005-ci ildən 2008-ci ilədək infrastruktur, telekommunikasiya və maliyyə xidmətləri sahəsində irimiqyaslı investisiya layihələri üzrə konsaltinq fəaliyyəti ilə məşğul olub. Mir Camal Paşayev 2006-cı ildən "PAŞA Holdinq" MMC-də icraçı direktor vəzifəsində çalışır. O həmçinin "PAŞA Sığorta" ASC-nin Müşahidə Şurasının sədridir.

Fərid Axundov
Müşahidə Şurasının sədri

Fərid Axundov 1992-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu (hazırda Azərbaycan Dövlət İqtisad Universitetini) bitirib, Nottingham Trent Universitetinin idarəetmə kurslarının məzunudur. 1994-cü ildə o, Birləşmiş Krallıq hökumətinin təsis, Xarici İşlər və Britaniya Birliyi Məsələləri Nazirliyinin təltif etdiyi nüfuzlu Chevening təqaüdünü qazanan ilk Azərbaycan vətəndaşlarından biri olmuşdur və 1995-ci ildə Salford Universitetinin (Mançester, Birləşmiş Krallıq) MBA dərəcəsini almışdır.

Cənab Axundov əmək fəaliyyətinə 1991-ci ildə metal zavodunda iqtisadçı vəzifəsindən başlamışdır. Bir il sonra o, xarici iqtisadi əlaqələr üzrə baş iqtisadçı kimi Azərbaycan Respublikası İqtisadiyyat və Planlaşdırma Dövlət Komitəsinə işə qəbul edilmişdir. 1996-cı ildən 2003-cü ilədək Fərid Axundov HSBC-nin törəmə qurumu British Bank of the Middle East bankında bir sıra rəhbər vəzifələr tutmuş, maliyyə nəzarəti meneceri vəzifəsindən Müştəri Xidmətləri, sonra Korporativ Bankçılıq Departamentinin rəhbəri, nəhayət, HSBC Azərbaycanın baş icraçı direktor müavini vəzifəsinədək yüksəlmişdir. 2003-cü ildə Fərid Axundov İdarə Heyəti sədri qismində "Most-Bank Azərbaycan" KB-də fəaliyyətə başlamış, "Mostbank Azərbaycan"-nın restrukturizasiyası və rebrendiqi nəticəsində o zaman ölkənin ən böyük kommersiya banklarından biri olan "Bank Standard" ASC-nin yaradılması prosesinə nəzarət etmişdir. 2007-ci ildə Fərid Axundov "PAŞA Bank" ASC-də İdarə Heyətinin Sədri qismində fəaliyyətə başlamış, 2015-ci il 1 iyul tarixində Müşahidə Şurasının üzvü vəzifəsinə təyin edilmişdir.

Vadim Şneyer
Müşahidə Şurasının üzvü

Vadim Şneyer 1991-ci ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini hüquq elmləri üzrə fərqlənmə diplomu ilə bitirib. 1991-1997-ci illərdə müxtəlif yerli və xarici şirkətdə, o cümlədən, Bakı Banklararası Valyuta Birjasında və Far East Levingston Shipbuilding gəmiqayırma şirkətində hüquqşünas işləyib.

1997-2001-ci illərdə o, Dr. Entezari & Associates hüquq şirkətinin Bakı ofisində idarəedici partnyor kimi fəaliyyət göstərib. 2001-ci ildə Michael Wilson & Partners hüquq şirkətinin Almatı ofisinə işə qəbul edilib və 2005-ci ilədək orada işləyib. 2005-ci ildə "B M" hüquq şirkətinin Bakı ofisinə işə qəbul edilib və 2007-ci ilədək orada işləyib. Vadim Şneyder 2007-ci ildən "PAŞA Holding" MMC-nin Hüquq Departamentinin direktoru vəzifəsində işləyir, 2011-ci ildə "PAŞA Holding" MMC-nin direktor müavini vəzifəsinə təyin edilib. 2008-2013-cü illərdə Vadim Şneyer "Kapital Bank" ASC-nin Müşahidə Şurasının sədri olub.

Kəmalə Nuriyeva
Müşahidə Şurasının üzvü

Kəmalə Nuriyeva 1998-ci ildə Qərb Universitetinin Bank İşi fakültəsini bakalavr pilləsi üzrə bitirib, 2002-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə üzrə magistr dərəcəsini alıb. O, peşəkar karyerasına 1996-cı ildə "Poçtbank" ASC-də İT üzrə mütəxəssis vəzifəsində başlayıb və yeddi il ərzində Kredit şöbəsinin rəhbəri vəzifəsinədək yüksəlib. 2003-cü ildə o, Azərbaycanın bölgələrində kənd təsərrüfatının inkişafı məqsədilə TACIS proqramı çərçivəsində yaradılmış Kənd Təsərrüfatına İnvestisiyalar Fondunda fəaliyyətə başlamış, kredit mütəxəssisi kimi müştərilərin cəlb edilməsi, kreditlərin verilməsi və idarə edilməsinə cavabdeh olmuşdur. Həmin il Kəmalə Nuriyeva "Unibank" Kommersiya Bankı ASC-dən xəzinədarlığa nəzarət vəzifəsinə işə dəvət edilmişdir, valyuta və bazar risklərini idarəetmə üzrə məsuliyyət daşımışdır. 2004-2005-ci illərdə o, McDermott Caspian Contractors Inc. şirkətində "Mərkəzi Azəridə Dəniz Platformalarının Hazırlanması və Quraşdırılması" layihəsi üzrə xərclərə nəzarətedən əməkdaş kimi işləmişdir. 2005-ci ildə "Bank of Baku" ASC-də iş fəaliyyətinə başlamışdır və 2007-ci ilədək Baş mühasibin müavini vəzifəsində işləyərək mühasibat uçotu və idarəetmə üzrə hesabatlılıq məsələlərinə cavabdeh olmuşdur. Kəmalə Nuriyeva "PAŞA Bank" ASC-də karyerasına 2007-ci ildə daxili auditor vəzifəsində başlamışdır, 2010-cu ildə isə Riskləri İdarəetmə Departamentinin direktoru təyin edilmişdir. 2011-ci ildə o, qrup üzrə daxili auditor qismində "PAŞA Holdinq" MMC-yə keçmiş və "PAŞA Bank" ASC-nin Audit komitəsinin sədri vəzifəsinə təyin edilmişdir. 2013-cü ildə "PAŞA Holdinq" MMC-nin Riskləri İdarəetmə Departamentinin direktoru təyin edilmişdir, 2013-cü il 11 iyun tarixindən "PAŞA Bank" ASC-nin Müşahidə Şurasının üzvüdür.

Nəriman Sərdarlı
Müşahidə Şurasının üzvü

Nəriman Sərdarlı 2004-cü ildə Nyu York Şəhər Universitetininin biznes, idarəetmə və maliyyə üzrə bakalavr pilləsini bitirib. Həmin il o, Azərbaycanda Deloitte şirkətində audit üzrə kiçik əməkdaş kimi peşəkar karyerasına başlamışdır. 2005-ci ildə PwC şirkətinin Bakı ofisində auditor vəzifəsində fəaliyyətə başlamışdır. 2007-ci ildə Nəriman Sərdarlı yeni təsis edilmiş "PAŞA Bank" ASC-nin Maliyyəni İdarəetmə Departamentində İİS (idarəetmə informasiya sistemi) sahəsində daxili və xarici maliyyə hesabatlarına cavabdeh mütəxəssis kimi fəaliyyətə başlamışdır. 2009-cu ildə o, "PAŞA Holdinq" MMC-nin İnvestisiyalar və Layihələr Departamentində holdinqin PE/VC xüsusi təyinatlı maliyyələşmə şirkətinin işləməsinə cavabdeh investisiya meneceri kimi fəaliyyətə başlamışdır. 2009-cu ilin mart ayında o, "PAŞA Bank" ASC-nin Audit Komitəsinin rəhbəri, 2010-cu ildə isə "PAŞA Bank" ASC-nin Müşahidə Şurasının üzvü təyin edilmişdir. Nəriman Sərdarlı 2012-ci ildə Northwestern Universiteti nəzdində Kellogg İdarəetmə Məktəbi ilə mübadilə proqramında iştirak edərək IE Biznes Məktəbinin biznesin idarə edilməsi sahəsində magistr dərəcəsinə yiyələnmək üçün dövlət proqramının təqaüdçüsü adını almışdır. 2015-ci il 1 fevral tarixində o, "PAŞA Holdinq" MMC-nin İnvestisiyalar və Layihələr Departamentinin direktoru vəzifəsinə təyin edilmişdir.

Taleh Kazımov
Baş iraçı direktor və İdarə Heyətinin sədri

Taleh Kazımov 2007-ci ildə "PAŞA Bank" ASC-də risklər üzrə menecer kimi fəaliyyətə başlayıb. 2011-ci ildə o, "PAŞA Bank" ASC-nin investisiyalar üzrə baş direktoru və İdarə Heyətinin üzvü təyin edilib, sonra isə baş icraçı direktor vəzifəsinə yüksəlib. Cənab Kazımov maliyyə sektorunda peşəkar karyerasına 2004-cü ildə "Bank Standard" ASC-nin Xəzinədarlıq Departamentinin mütəxəssisi kimi başlayıb, Korporativ Kreditlər Departamentinin direktor müavini vəzifəsinə

yüksəlməzdən əvvəl hesabdarlığı və büdcəni idarəetmə və planlaşdırma bölməsinin rəhbəri olub. 2006-cı ildə o, Ernst & Young şirkətində auditor, 2007-ci ildə "Fin-Eko Analitik-İnformasiya Agentliyi" ASC-nin direktoru vəzifəsində çalışıb. Cənab Kazımov ali təhsilini 2000-2004-cü illərdə Azərbaycan Texniki Universitetinin Avtomatika və Hesablama Texnikası (hazırda Avtomatika və Kompyuter Texnikası) fakültəsində alıb. O, həmçinin Azərbaycan Dövlət Neft Akademiyasında işgüzar inzibatçılıq ixtisası üzrə magistr dərəcəsini və ABŞ-nin Georgia State University-nin maliyyə təmayüllü biznes dərəcəsini alıb. Əlavə olaraq cənab Kazımov London Biznes Məktəbinin və Harvard Biznes Məktəbinin məzunudur.

Emil Hacıyev
Baş icraçı direktor, baş əməliyyat inzibatçısı (15 dekabr tarixinə əsasən işdən azad edilib)

Emil Hacıyev 2007-ci ildə "PAŞA Bank" ASC-də baş əməliyyat inzibatçısı kimi fəaliyyətə başlayıb. Bundan əvvəl o, Azərbaycan Respublikasının Milli Bankında (hazırda Mərkəzi Bank) Əməliyyatlar İdarəsinin iqtisadçısı, Valyutanın Tənzimlənməsi və Valyutaya Nəzarət Departamentinin iqtisadçısı, sonra baş iqtisadçısı, Hesablaşmalar Departamentində SWIFT qrupunun rəhbəri kimi müxəlif vəzifələr tutub. Mərkəzi Bankda struktur dəyişmələri nəticəsində o, Ödəniş Sistemləri və Hesablaşmalar Departamentinin baş iqtisadçısı vəzifəsinə təyin edilmişdir. Ali təhsilini 1990-1995-ci illərdə Məşədi Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (hazırda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin) İstehsalat Proseslərinin Avtomatlaşdırılması fakültəsində alıb. 1993-cü ildə o, Beynəlxalq İnstitusional İnkişaf Assosiasiyası nəzdində Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun (hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) Beynəlxalq Biznes Məktəbini fərqlənmə ilə bitirib. 2000-2002-ci illərdə o, Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq Münasibətlər fakültəsində təhsil alıb və iqtisadiyyat ixisası üzrə diplom alıb.

Şirin Əliyeva
İdarə Heyətinin üzvü, baş hüquq inzibatçısı

Şirin Əliyeva 2011-ci ildə "PAŞA Bank" ASC-də Hüquq Departamentinin direktoru kimi fəaliyyətə başlayıb və 2015-ci ildə baş hüquq inzibatçısı vəzifəsinə yüksəlib. Bundan əvvəl o, neft-qaz sahəsində fəaliyyət göstərən bir şirkətdə müxtəlif vəzifələr tutub, nəhayət, 2005-2007-ci illərdə "Nobel Oil" MMC-də hüquq məsləhətçisi kimi çalışıb. 2007-2011-ci illərdə xanım Əliyeva qızıl mədən sənayesində fəaliyyət göstərən Azerbaijan International Mineral Resources Operating Company (AIMROC) şirkətinin Hüquq Xidmətinin rəhbəri olub. Şirin Əliyeva 2004-cü ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirib. Əlavə olaraq o, London Biznes Məktəbi daxil olmaqla bir sira aparıcı biznes məktəblərində rəhbər işçilər üçün təhsil proqramlarının, o cümlədən Harvard Biznes Məktəbinin HPLP (yüksək potensialı olanlar üçün liderlik) proqramının məzunudur.

Aydın Atakişiyev
İdarə Heyətinin üzvü, baş stategiya inzibatçısı

Aydın Atakişiyev 2013-cü ildə "PAŞA Bank" ASC-də Strateji Marketinq Departamentinin direktoru kimi fəaliyyətə başlayıb və 2015-ci ildə baş strategiya inzibatçısı vəzifəsinə yüksəlib. Cənab Atakişiyev 2002-ci ildə Bakı Dövlət Universitetinin riyazi iqtisadiyyat ixtisası üzrə bakalavr pilləsini bitirib. Sonra o, 2006-cı ildə Mərkəzi Avropa Universitetinin (Budapeşt, Macarıstan) iqtisadi elmlər üzrə magistr dərəcəsini, 2013-cü ildə Rotterdam İdarəetmə Məktəbinin (Niderland Krallığı) işgüzar inzibatçılıq üzrə magistr dərəcəsini alıb. Əlavə olaraq o, 2012-ci ildə Çikaqo Universiteti nəzdində Booth Biznes Məktəbində beynəlxalq biznes mübadiləsi proqramının təqaüdçüsü olub. Cənab Atakişiyev peşəkar fəaliyyətinə 2002-ci ildə idman

tədbirlərini idarəetmə sahəsində başlayıb, 2006-cı ildə kredit mütəxəssisi kimi maliyyə xidmətləri sahəsində çalışmağa başlayıb. 2007-2011-ci illərdə maliyyə analitiki və layihə meneceri kimi "PAŞA Holdinq" MMC-də işləyib.

Xəyalə Nağıyeva
İdarə Heyətinin üzvü, baş maliyyə inzibatçısı

Xəyalə Nağıyeva 2015-ci ildə "PAŞA Bank" ASC-də Kredit Risklərinin Qiymətləndirilməsi Departamentinin direktoru kimi fəaliyyətə başlayıb və qısa müddətdən sonra İdarə Heyətinin üzvü və baş maliyyə inzibatçısı vəzifəsinə təyin edilib. Bundan əvvəl o, 2009-cu ildən "PAŞA Holdinq" MMC-də investisiyalar üzrə menecer vəzifəsində işləyib və 2010-cu ildən "PAŞA Bank" ASC-nin Audit Komitəsinin üzvü kimi fəaliyyət göstərib. Xanım Nağıyeva peşəkar karyerasına 2003-cü ildə maliyyə xidmətləri sahəsində, Deloitte CIS şirkətində auditor kimi başlayıb. Nəticədə o, Deloitte CIS şirkətinin maliyyə məsləhət xidmətləri bölməsində baş auditor vəzifəsinə yüksəlib, Almatıya (Qazaxstan) təyinat alıb və burada bir sıra yerli və regional layihələri idarə edib. O, 2004-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetini fərqlənmə diplomu ilə bitirib, universitet təhsilinin bir hissəsini Slippery Rock Universitetində (Pensilvaniya, ABŞ) davam etdirib. Xanım Nağıyeva həmçinin Harvard Biznes Məktəbinin, London Biznes Məktəbinin, Ashridge Biznes Məktəbinin (Birləşmiş Krallıq) və IE Biznes Məktəbinin (İspaniya) məzunudur.

Şahin Məmmədov
"PAŞA Bank Georgia"-nın Direktorlar Şurasının sədri, baş icraçı direktor

Şahin Məmmədov 2002-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Mühasibat Uçotu və Audit fakültəsinin bakalavr pilləsini bitirib, 2004-

cü ildə həmin təhsil ocağının magistr dərəcəsini alıb və 2010-cu ildə iqtisadiyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsini qazanıb. O, 2003-cü ildə "Koçbank Azərbaycan" MMC-də işə başlayıb, əvvəlcə mühasib, sonra baş mühasibin müavini vəzifələrini tutub. 2005-ci ildə Deloitte & Touche şirkətində audit üzrə kiçik əməkdaş vəzifəsinə işə düzəlib, sonra audit üzrə menecer vəzifəsinədək yüksəlib. 2014-cü ildən ACCA-nin (İxtisaslaşmış Sertifikatlı Mühasiblər Assosiasiyasının) üzvüdür. Şahin Məmmədov 2009-cu ildə "PAŞA Bank" ASC-nin Maliyyəni İdarəetmə Departamentinin direktoru, 2011-ci ildə İdarə Heyətinin üzvü təyin edilmişdir. O, biznesin inkişafı üzrə direktor vəzifəsini icra etmək məqsədilə 2013-cü ildə "PAŞA Bank Georgia"-a keçmişdir. 2014-cü ilin iyul ayından "PAŞA Bank Georgia"-nın baş icraçı direktorudur.

Qoqa Caparidze
"PAŞA Bank Georgia"-nın Direktorlar Şurasının sədri, baş kommersiya direktoru

Qoqa Caparidze 2014-cü ilin yanvar ayında "PAŞA Bank Georgia"-da kommersiya müdiri kimi fəaliyyətə başlayıb və 2015-ci ilin aprel ayından Direktorlar Şurasının üzvüdür. Cənab Caparidze bank işi sahəsində karyerasına 2003-cü ildə "Bank of Georgia"-nın investisiya törəmə bankı olan "BG Capital"-da partnyor kimi başlamışdır. 2005-ci ildə o, "Bank of Georgia"-da peşəkar fəaliyyətinə səhmdar kapital məsələləri üzrə aparıcı bankir qismində davam etmişdir. Daha sonra o, 2006-cı ildən 2011-ci ilədək Tifslisdə və Londonda Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) özəl səhmdar kapitalın maliyyələşməsi üzrə baş bankir kimi xidmət göstərişdir. Bunda sonra o, "Bank Republic Société Générale Group"-da korporativ bankçılıq bölməsinin rəhbəri olmuşdur. Qoqa Caparidze 1996-cı ildə Tiflis Dövlət Universitetini bitirib. 2002-ci ildə o, Hofstra Universiteti Zarb Biznes Məktəbinin magistr dərəcəsini alıb.

H. Cenk Eynehan
"PASHA Yatırım Bankası A.Ş."-nin Direktorlar Şurasının üzvü, baş müdir

H. Cenk Eynehan Erasmus Universitetinin (Niderland Krallığı) iqtisadiyyat üzrə subbakalvr (təməl ali təhsil) dərəcəsini, Monroe Kolecinin (Nyu-York, ABŞ) idarəetmə üzrə bakalavr dərəcəsini və Koç Universitetinin rəhbər işçilər üçün işgüzar inzibatçılıq üzrə magistr dərəcəsini alıb. 1994-2013-cü illər ərzində o, Türkiyədə və xarici ölkələrdə banklarda və digər maliyyə təsisatlarında orta səviyyədən rəhbərliyə qədər müxtəlif vəzifələrdə çalışıb. 2013-cü il 2 avqust tarixində "PASHA Yatırım Bankası A.Ş."-də fəaliyyətə başlayıb. Bank işi və işgüzar inzibatçılıq sahəsində 21 illik təcrübəsi var.

Ali İhsan Tokkuzun
"PASHA Yatırım Bankası A.Ş."-nin baş direktor müavini

Ali İhsan Tokkuzun 2013-cü ilin iyun ayında "PASHA Yatırım Bankası A.Ş."-də baş direktor müavini vəzifəsində fəaliyyətə başlayıb. Bundan əvvəl o, "İstanbul Denizçilik Gemi İnşa Sanayi ve Ticaret A.Ş."-da İcraiyyə Komitəsinin üzvü və maliyyə koordinatoru vəzifəsində işləyib. Cənab Tokkuzun peşəkar karyerasına "Esbank T.A.Ş."-nin Auditorlar Şurasında başlamış, sonra Vyanadakı "Esbank AG"-a keçərək 2000-ci ilədək müxtəlif vəzifələrdə (o cümlədən, Audit Komitəsinin sədr müavini vəzifəsində) çalışmışdır. 2000-2002-ci illərdə o, "Kentbank A.Ş."-də maliyyə təsisatları və beynəlxalq marketinq qrupunun meneceri işləmişdir. Daha sonra o, 2010-cu ilədək Vyanadakı "DenizBank AG"-də baş direktor müavini olmuş, 2010-cu ildən "SK Danube AG"-nin baş direktor vəzifəsini icra etmişdir. Cənab Tokkuzun Gazi Universiteti İdarəetmə fakültəsinin bakalavr pilləsini bitirib, İstanbul Texniki Universitetinin rəhbər işçilər üçün işgüzar inzibatçılıq üzrə magistr dərəcəsini alıb.

*C-səviyyəli işçi heyət icra etdikləri funksiyalara dəyişiklik edilmədən Direktorlar şurasına üzv təyin edilə bilərlər.

"PAŞA Bank" ASC-nin ali idarəetmə struktur vahidi Səhmdarların Ümumi Yığıncağıdır. Bankın idarə edilməsi və əməliyyatları üzərində nəzarəti Müşahidə Şurası həyata keçirir. Audit Komitəsi bankın auditə aid edilən fəaliyyətinə nəzarət edir. Bankın icraedici struktur vahidi İdarə Heyətidir.

Müşahidə Şurası/İdarə Heyəti və Komitə üzvləri

Müşahidə Şurası:

- Mir Camal Paşayev, sədr
- Fərid Axundov, üzv
- Vadim Şneyer, üzv
- Kəmalə Nuriyeva, üzv
- Nəriman Sərdarlı, üzv

İdarə Heyəti:

- Taleh Kazımov, sədr
- Emil Haciyev, sədr müavini (vəzifə 2015-ci ilin 15 dekabr tarixinədək tutulmamışdır)
- Şirin Əliyeva, üzv
- Aydın Atakişiyev, üzv
- Xəyalə Nağıyeva, üzv

Strategiya və Büdcə Komitəsi:

- İdarə Heyətinin sədri Taleh Kazımov, sədr
- İdarə Heyətinin üzvü, baş maliyyə inzibatçısı, üzv
- Strategiya Departamentinin direktoru, üzv
- "PAŞA Holdinq" MMC-də Bank Qrupunun mütəxəssisi Vüqar Axundov, müstəqil üzv
- "PAŞA Holdinq" MMC-nin baş əməliyyatçısı/baş icraçı direktorun müavini Ağa-Əli Kamalov, müstəqil üzv
- "PAŞA Holdinq" MMC-nin baş mühasibi Əkbər İbrahimov, müstəqil üzv
- "PAŞA Bank" ASC-nin baş icraçı direktorunun müşaviri Turxan Mahmudov, müstəqil üzv

Mükafatlandırma Komitəsi:

- Müşahidə Şurasının sədri Mir Camal Paşayev, sədr
- "PAŞA Holdinq" MMC-də Bank Qrupunun rəhbəri Cəlal Qasımov, üzv
- "PAŞA Holdinq" MMC-nin İnsan Resursları və İnzibatçılıq Departamentinin direktoru Aytən Abbaslı, üzv
- İdarə Heyətinin sədri Taleh Kazımov, üzv
- İnsan Resursları Departamentinin direktoru Çimnaz Qasımova, üzv

Riskləri İdarəetmə Komitəsi:

- Müşahidə Şurasının üzvü Kəmalə Nuriyeva, sədr
- Müşahidə Şurasının üzvü Vadim Şneyer, üzv
- İdarə Heyətinin sədri Taleh Kazımov, üzv
- İdarə Heyətinin üzvü və baş maliyyə inzibatçısı Xəyalə Nağıyeva, üzv
- Audit Komitəsinin sədri Azər Sadıqov, səs verməyən üzv (Banklarda korporativ idarəçilik standartlarına əsasən)
- Məlumat Təhlükəsizliyi Şöbəsinin müdiri Natiq Hüseynov, səs verməyən üzv (Banklarda korporativ idarəçilik standartlarına əsasən)

Strateji İdarəetmə Komitəsi:

- İdarə Heyətinin bütün üzvləri
- Strategiya Departamentinin direktoru
- İnsan Resursları Departamentinin direktoru

Kredit Komitəsi:

- İdarə Heyətinin sədri Taleh Kazımov, sədr
- İdarə Heyətinin üzvü və baş hüquq inzibatçısı Şirin Əliyeva, üzv
- İdarə Heyəti sədrinin müşaviri Cavid Quliyev, üzv
- Korporativ və İnstitusional Bankçılıq Departamentinin direktoru Melih Menqu, üzv
- Strategiya Departamentinin direktoru Aqşin Mirzəzadə, üzv
- Kredit riskləri üzə məsləhətçi Padikkal Əsləhəhman, səs verməyən üzv

Kiçik Kreditlər Komitəsi:

- Korporativ və İnstitusional Bankçılıq

Departamenti nəzdində Kreditlərin Strukturlaşdırılması Şöbəsinin müdiri Səidə Hüseyn, sədr
- Xəzinədarlıq Departamentinin direktoru Bəhruz Nağıyev, üzv
- Əməliyyatlar və Nəzarət Departamentinin direktoru Rəşad Məmmədov, üzv
- Korporativ və İnstitusional Bankçılıq Departamenti nəzdində Kiçik və Orta Sahibkarlıq Şöbəsinin müdiri Heydər Süleymanov, üzv
- Korporativ və İnstitusional Bankçılıq Departamenti nəzdində Məhsul və Seqment Strategiyası Şöbəsinin müdiri Vəfa Həsənova, üzv

Aktivləri və Passivləri İdarəetmə Komitəsi:
- İdarə Heyətinin üzvü və baş strategiya inzibatçısı Aydın Atakişiyev, sədr
- İdarə Heyəti sədrinin müşaviri Cavid Quliyev, üzv
- Riskləri İdarəetmə Departamentinin direktoru Heydər Qasımov, üzv
- Ticarətin Maliyyələşdirilməsi Departamentinin direktoru Şota Dekanosidze, üzv
- Xəzinədarlıq Departamentinin direktoru Bəhruz Nağıyev, üzv

Məhsul və Tariflər Komitəsi:
- Baş strategiya inzibatçısı, sədr
- Kommersiya və İnstitusional Bankçılıq Departamentinin direktoru, üzv
- Riskləri İdarəetmə Departamentinin direktoru, üzv
- Tətbiqi Proqramlar və Dəstək Departamenti nəzdində Tətbiqi Proqramların Yaradılması Şöbəsinin müdiri, üzv
- Komplayans Departamentinin direktoru, üzv
- Fərdi Bankçılıq Departamentinin direktoru, üzv
- Əməliyyatlar və Nəzarət Departamentinin direktoru, üzv

Audit Komitəsi:
- Azər Sadıqov, sədr
- Cəmil Məmmədov, üzv
- Pərvin Əhədzadə, üzv

Neft qitymətlərinin sürətlə aşağı düşməsi xarici valyuta mədaxilinin həcmində əhəmiyyətli azalmaya, beləliklə milli valyutanın təsirlərə məruz qalmasına səbəb oldu. Bu hal ölkə iqtisadiyyatının bir çox sahəsində2015-ci ildə olduqca qəliz bazar şəraitinin yaranması ilə nəticələndi.

QLOBAL MAKROİQTİSADİ MƏNZƏRƏ VƏ AZƏRBAYCAN İQTİSADİYYATI

QLOBAL MAKROİQTİSADİ MƏNZƏRƏ VƏ AZƏRBAYCAN İQTİSADİYYATI

Qlobal makroiqtisadi mənzərə

2015-ci il dünya ölkələrinin məyusedici iqtisadi göstəriciləri ilə yadda qaldı. Ardıcıl olaraq beşinci ildir ki, formalaşan bazarlarda artım dərəcəsi aşağı düşür, inkişaf etmiş iqtisadi sistemlərdə isə mülayim təpmə davam edir. Beynəlxalq Valyuta Fodunun (BVF) sonuncu hesabatına əsasən, qlobal makroiqtisadi mənzərəyə hazırda üç keçid dövrü təsir edir:

- Çində işgüzar fəallığın tədricən səngiməsi və investisiya qoyuluşu, istehsalat sahələrindən istehlak və xidmətlərə doğru yeni tarazlıq müstəvisində qərarlaşması;
- Enerji resursları və digər əmtəələr üzrə daha aşağı qitmət mühiti;
- ABŞ iqtisadiyyatının möhkəm bərpası əsnasında ölkənin pul siyasətinin Avropa, xüsusilə Yaponiya kimi bir neçə inkişaf etmiş iqtisadi sistesmlərin mərkəzi banklarının genişlənən (qeyri-ənənəvi) pul siyasətinə davam etməsinə baxmayaraq tədricən sərtləşməsi.

2013-cü ilin may ayında Federal Ehtiyatlar Sistemi (Fed) daha sərt pul siyasətinin icrasına keçəcəyindən xəbər verməyə başladı və istiqraz alışı proqramının 2013-cü ilin dekabr ayında daralmasına müraciət etdi. İki ildən sonra, 2015-ci ilin dekabr ayında Fed faiz dərəcələrini 0-0.25% intervalından 0.25-0.5% intervalınadək artırdı. Nəticədə ABŞ dolları digər sərbəst valyutalara qarşı möhkəmləndi, iqtisadiyyatı formalaşan ölkələr isə kəskin qaydada aşağı düşmüş əmtəə qiymətləri ilə yanaşı ciddi kapital axını ilə üzləşdi.

ABŞ, Avropa və Yaponiya kimi inkişaf etmiş iqtisadi sistemlər iqtisadiyyatın mülayim bərpası dövrünə keçərkən Çin iqtisadiyyatının artım göstəriciləri səngidi, Braziliya, Rusiya və əmtəə istehsal edən digər ölkələrdə isə dərin tənəzzül başladı. Bu hadisələr əsnasında BVF 2015-ci il üzrə qlobal (iqtisadi artım) proqnozunu 3.4%-dən 3.1%-dək dəyişdi, avrozona üzrə artım göstəricisini isə 1.5% səviyyəsində hesabladı. Eyni zamanda inkişaf edən ölkələrin 2009-cu ildən ən aşağı sürətlə, 4% böyümələri gözlənilir.

2015-ci ildə xüsusilə Çin daxil olmaqla formalaşan iqtisadi sistemlərdə artım dərəcəsinin yavaşımasına müvafiq olaraq solğun qlobal iqtisadi tələb davam etmişdir. Bundan başqa, dünya miqyasında izafi neft həcmi neft qiymətinin kəskin aşağı düşməsi ilə nəticələndi. İl ərzində neft qiyməti 40% civarında aşağı düşdü və dekabr ayında Brent sortunun bir barreli 36 ABŞ dollarınadək azalaraq 11 ilin ən aşağı səviyyəsini müəyyən etdi. Əmtəə qiymətlərinin çökməsi əmtəə ixracatçısı ölkələrində artım dərəcəsinə mane oldu.

Azərbaycan iqtisadiyyatı

Neft qiymətinin dünya miqyasında qəfildən aşağı düşməsi hesabat ili ərzində Azərbaycan iqtisadiyyatının səngiməsinə səbəb oldu. 2014-cü ilin 2.8% artımı ilə müqayisədə 2015-ci ildə Azərbaycan iqtisadiyyatı cəmi 1.1%, 54.4 milyard manat həcminədək böyümüşdür. Çökən neft qiymətləri ixrac gəlirlərinin xeyli aşağı olması və milli valyutanın kəskin ucuzlaşması ilə nəticələndi. 2015-ci ilin sonuna olan vəziyyətə əsasən Azərbaycan manatı ilin əvvəli ilə müqayisədə dəyərinin 98%-i itirmişdir. Bu amillər ev/ailə təsərrüfatlarının istehlakına və dövlət investisiya qoyuluşuna həmçinin mənfi təsir göstərdi.

Ölkə iqtisadiyyatının qeyri-neft sektoru 1.1%, neft-qaz sektoru isə 0.6% artdı. Neft-qaz sektorunda xam neft hasilatı 0.7% azalarkən, qaz hasilatı 5.5% yüksəlmişdir. Beləliklə, il ərzində qeyri-neft sektorunun (cari qiymətlərlə) ümumdaxili məhsula nisbəti 63.5%-dək artmışdır.

Tikinti sahəsində sərt azalmanın dağ-

mədən və istehsalat sahələrindəki irəliləyişi üstələməsi nəticəsində 2014-cü ilin 0.5% artımı ilə müqayisədə 2015-ci ildə sənaye sektoru 1.9% daraldı. Dövlət investisiyası həcminin kiçilməsi və daşınmaz əmlaka olan tələbin daha da aşağı düşməsi tikintidə 2014-cü ildə 9.1% artımı 2015-ci ildə 13.4% tənəzzüllə əvəzlədi. İstehlak xərclərinin və digər xidmətlərin daralması səbəbindən xidmət sahəsində artım 2014-cü ilin 7.4% göstəricisi ilə müqayisədə 4.5%-dək səngidi. Kənd təsərrüfatında sərfiyyatla bağlı tətbiq edilən dövlət imtiyazları 2014-cü ilin mənfi 2.4% göstəricisini növbəti il ən yüksək, 6.6%-lik artıma səəb oldu.

Tələbə gəldikdə milli valyutanın dəyərdən düşməsi və sonrakı aylarda kreditləşmənin bir qədər sərtləşməsi səbəbindən dövlət və özəl

İqtisadi göstəricilər* (%)	2015	2016P	2017P
ÜDM artımı	1.1	-1.0	1.0
İnflyasiya dərəcəsi	4.0	12.0	5.2
Cari hesab qalığı (ÜDM-lə müqayisədə nisbi çəkisi)	0.4	-0.6	1.5

*Mənbə: 2016-cı il üzrə Asiyanın İnkişaf Perspektivi

2015-ci ildə Azərbaycanda bank sahəsində konsolidasiya, müştərilər tərəfindən keyfiyyətli və nüfuzlu bank kimi qəbul edilməyə yönəlmək nəticəsində altı bank bağlandı.

sektorda istehlakın azalması proqnozlaşdırılır. Bunun ev/ailə təsərrüfatlarında qənaət (yığım) göstəricisinin 2014-cü ildə 12.4% təşkil etməsi ilə müqayisədə 2015-ci ildə iki dəfədən çox artaraq 31.7%-ə çatmasına baxmayaraq baş tutması gözlənilir. Neft qiymətlərinin daha aşağı səviyyədə qərarlaşması və ölkə ixracatında karbohidrogenlərin 90%-dən çox paya sahib olması səbəbindən xalis ixrac kəskin qaydada azalmışdır.

Bank sahəsi

Ümumi iqtisadi səngimə Azərbaycanın bank sektoruna da mənfi təsir etmişdir. Neft qitymətlərinin sürətlə aşağı düşməsi xarici valyuta mədaxilinin həcmində əhəmiyyətli azalmaya, beləliklə milli valyutanın təsirlərə məruz qalmasına səbəb oldu. 2015-ci ilin əvvəlində başlayan devalvasiya dalğası Azərbaycan banklarında aktivlərin keyfiyyətini, kapital, mənfəətlilik mövqeyini və maliyyələşmə vəziyyətini pisləşdirdi.

Valyuta məzənnəsi və neft qiymətinin orta səviyyəsi

Mənbələr: Azərbaycan Respublikasının Mərkəzi Bankı; Haver Analytics

2015-ci ildə bank sahəsində likvidlik və kapital çatarlılığı (adekvatlığı) əmsalları pisləşdikcə sistem üzrə qeyri-işlək kreditlərin çəkisi (2014-cü ildə 8.3%-dən) 9.5%-dək artdı. Altı bank lisenziyaları Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən geri çağrıldıqdan sonra məcburiyyət qarşısında bağlandı. Bank sektoru üzrə kredit portfeli nominal göstəricilərlə 17%, 18.54 milyard manatdan 21.72 milyard manatadək artsa da bu yüksəlişin başlıca səbəbi manatın devalvasiyası idi. Qeyri-işlək kreditlərin həcmi 55%, 976.3 milyon manatdan 1.5 milyard manatadək artmaqla kredit portfelinin keyfiyyəti əhəmiyyətli dərəcədə pisləşdi. Bank sektoru üzrə əmanətlərin ümumi məbləği milli valyutanın devalvasiyasının birbaşa təsiri nəticəsində 53%, 11.16 milyard manatdan 17.1 milyard manatadək artdı.

Real göstəricilərlə əmanətlər və qənaət edilmiş vəsaitin həcmi kəskin azalmaqla milli valyutanın devalvasiyası aktivlərin valyuta tərkibinin dəyişməsinə və bankların balans göstəricilərinin sürətlə dollarlaşmasına təkan verdi. Xarici valyutada əmanətlərin məbləği iki dəfədən çox artaraq 2015-ci ilin sonunda ümumi əmanət kütləsinin 85%-i təşkil etdi. Xarici valyutada kreditlərin ümumi aktivlərdə çəkisi isə 27%-dən 49%-dək yüksəldi.total loans.

2016-cı il üzrə proqnoz

İqtisadi geriləmə və makroiqtisadi göstəricilərin pisləşməsi nəticəsində 2015-ci il iqtisadi islahatların başlanmasından xəbər verdi. Azərbaycan hökuməti iqtisadiyyatı şaxələndirmək, işgüzar mühiti yaxşılaşdırmaq və sahibkarlıq fəaliyyətinə təkan vermək məqsədilə müvafiq təklifləri formalaşdırmağa başlayıb. Aparıcı beynəlxalq təşkilatların hesablamalarına əsasən 2016-cı ildə Azərbaycanın bir daha müsbət iqtisadi artım nümayiş etdirməsi gözlənilir. Dünya Bankının Qlobal İqtisadi Mənzərə hesabatının sonuncu nəşrində

Potensialını gerçəkləşdirməyən ÜDM proqnozları ilə üzləşmiş Azərbaycan iqtisadiyyatını şaxələndirmək, işgüzar mühiti yaxşılaşdırmaq və sahibkarlıq fəaliyyətinə təkan vermək məqsədilə islahatlara başlayıb.

Azərbaycan iqtisadiyyatının üzərimizə gələn il 0.8% artması proqnozlaşdırılır. Dünya Bankı bildirir ki, iqtisadiyyatı şaxələndirən, resurslar bölgüsünü təkmilləşdirən, korporativ idarəçiliyi gücləndirən və qeyri-neft sektoruna investisiya axınını davam etdirən struktur islahatların başlanması iqtisadiyyatın bərpasına yardım edəcək. Ümumdünya İqtisadi Forumunun 2015-2016-cı illər üzrə Qlobal Rəqabət Qabiliyyəti hesabatına əsasən Azərbaycan hesabatın əhatə etdiyi 140 ölkə arasında 40-cı, MDB məkanında isə birinci yerdə qərarlaşıb.

Müstəqil Dövlətlər Birliyi (MDB) bölgəsində rəqabət göstəricisi baxımından ilk yerdə Azərbaycan qərarlaşıb.

Fitch Ratings beynəlxalq reytinq agentliyi bu yaxınlarda Azərbaycanın suveren reytinqini stabil perspektivli 'BBB-' investisiya dərəcində bərqərar etdi. Lakin Standard & Poor's və Moody's agentlikləri ölkənin kredit reytinqini müvafiq olaraq 'BB+' və 'Ba1' səviyyəsinədək aşağı saldılar. Moody's real göstricilərlə ÜDM-nin 2016-cı ildə 0.7%, 2017-ci ildə isə 1% artmasını proqnozlaşdırır. Neft qiymətinin hesablandığı kimi növbəti bir neçə il ərzində daha aşağı düşməsinin ölkənin iqtisadi gücünə təsiri, həmçinin ölkənin maliyyə sistemi və tədiyyə mövqeyi üzərində artan və əlaqəli təzyiqlər, pisləşən büdcə durumu və borc ölçüləri Azərbaycanın kredit reytinqinin azalmasının əsasını təşkil edən amillərdir.

ÜDM-nin sahəvi artım göstəricisi

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

2015-ci ildə “PAŞA Bank” ASC strateji diqqətin yönəldiyi rəqəmsal bank xidmətlərinin keyfiyyətini artırmaq üçün müvafiq səylərə davam etmişdir.

2015-ci İLDƏ FƏALİYYƏT

ƏSAS BANK SEQMENTLƏRİ

Dayrekt bankçılıq

"PAŞA Bank" ASC-nin rəqabət gücü qlobal təmayüllərə uyğun gələn innovativ, dünya səviyyəli məhsul və xidmətləri yaratmaq baxışından qaynaqlanır. Təsis edildiyi tarixdən "PAŞA Bank" ASC Azərbaycan bank sahəsində bir sıra innovasiyanı tətbiq edib. 2015-ci ildə bank, strateji diqqətin yönəldiyi rəqəmsal bank xidmətlərinin keyfiyyətini artırmaq üçün müvafiq səylərə davam edib. Bankın gələcək artımı və uğuru texnologiya və innovasiyalardan yararlanmaq, genişlənən, texnologiya bilicisi olan müştəri bazasına daha yaxşı xidmət göstərmək və xərcləri azaltmaqdan asılıdır. Bu məqsədə çatmaq üçün "PAŞA Bank" ASC 2015-ci ildə aşağıdakı layihələri yerinə yetirmişdir:

- Millikart sistemi ilə qovşaqdan-qovşağa (H2H) bağlantı:

2015-ci ilin aprel ayında "Millikart", kredit kart əməliyyatlarının işlənilməsi üzrə ölkənin ikinci şirkəti ilə bankın system infrastrukturuna dəstək olan birbaşa bağlantı yaradıldı. Bununla "PAŞA Bank" ASC ölkədaxili nağdsız ödənişlər şəbəkəsinin bir hissəsi olmaq imkanını qazandı. Əlavə olaraq, layihə nəticəsində əməliyyat xərcləri azaldı və bankın müştərilərinə dəyişən tarifləri təklif etmək imkanı yarandı.

- 3D formatında elektron ticarət (alqı-satqı):

Onlayn ticarət aparanları birləşdirən, müştərilər üçün onlayn ödənişlərin qəbulunu təmin edən təhlükəsiz (etibarlı) onlayn ödəniş platforması vasitə Tieto Card Suite rəqəmsal bank strategiyasının bir hissəsi kimi 2015-ci ilin avqust ayında işə başladı. Artıq bir çox müştəri dünyanın müxtəlif yerlərindən ödəniş qəbul etmək üçün bu platformadan yararlanır.

- Visa payWave kartları:

2015-ci ilin fevral ayında bank Visa International şirkəti ilə vasitəsiz (fiziki əlaqə olmadan) ödənişlər strategiyasının icrasında yekun mərhələ olan bir layihəni həyata keçirmişdir. Bundan sonra müştərilər Visa payWave kartlarından istifadə etməklə sürət və təhlükəsizliyi təmin edən vasitəsiz ödənişdən yararlana bilərlər.

- Fırıldaqçılıqla Mübarizə layihəsi:

(2015-ci ildə başlayıb, 2016-cı ilin mart ayında tamamlanması gözlənilir): onlayn ticarət aparanlar üçün onlayn kart ödənişlərini qəbul etmək imkanını yaradan elektron ticarət xidməti işə başladıqdan sonra "PAŞA Bank" ASC onlayn və digər ödənişlərin ticarət aparanlar baxımından təhlükəsizliyini prioritetləşdirdi. Ticarətin alış hissəsində mümkün fırıldaqçılıq halını aşkar etmək və onun qarşısını almaq məqsədilə fırıldaqçılıqla mübarizə sistemi tətbiq edilmişdir. Sahə üzrə üstün praktikalara və bankın xüsusi fəaliyyət qaydalarına əsaslanaraq bu sistem hər bir ödənişin təhlükəsizliyini təmin etmək məqsədilə əqdləşmə axınlarını onlayn və oflayn rejimdə monitorinq edir.

İnternet bankçılığı

2015-ci ildə "PAŞA Bank" ASC rəqəmsal bankçılığı strateji prioritet sahələrindən biri kimi ayırd etmişdir. İl ərzində bank fəal onlayn bank xidmətləri istifadəçilərinin sayını ikiqat artırmışdır. Bundan başa, kağızla aparılan əməliyyatlarla müqayisə edildikdə onlayn əqdləşmələrin nisbi 26%-dən 47%-dək artmışdır. Əmək haqqı (maaş) ödənişlərini tam avtomatlaşdırmaq və bankdaxili və banklararası ödənişləri arasıkəsilməz qaydada (24/7 əsasında) icra etmək bacarığı kimi yeni məhsul və xidmətlər müştərilərin rahatlıq və səmərəlilik səviyyəsinin yüksəlməsinə töhfə vermişdir.

Üzümüzə gələn ildə "PAŞA Bank" ASC böyüyən internet və mobil bankçılıq sahələrində məhsul və xidmətlərin göstərilməsinə olan tələbatı qarşılamaq üçün müvafiq nəticələrini gücləndirməyi planlaşdırır.

Təchizatın maliyyələşdirilməsi

"PAŞA Bank" ASC-i rəqiblərindən fərqləndirən cəhət müştərilərlə nəinki yaxından əməkdaşlıq etmək, həmçinin onların biznes artımı imkanlarını möhkəmləndirməkdən ibarətdir. Bu məqsədlə bank 2015-ci ildə təchizatın maliyyələşdirilməsi iqtiqamətində yeni proqrama başlamışdır. Proqram "PAŞA Bank" ASC-nin müştərilərinin məhsul və xidmətlərinin son istifadıçiləri üçün maliyyə təminatını nəzərdə tutur. Bu qəbildən olan kredit çərçivəsində bank, müştərinin satış həcmini artırmaq məqsədilə sifarişçi (təchizatçı) ilə tərəfdaşlıq yaradır. "PAŞA Bank" ASC təchizatın maliyyələşdirilməsi proqramına ilk dəfə İKT sahəsindən olan korporativ müştərilərlə başlayıb, hazırda is bu proqramın digər sahələrdən olan şirkətlərlə əməkdaşlıq sazişləri vasitəsilə genişləndirilməsi istiqamətində iş aparılır.

KORPORATİV VƏ KOMMERSİYA BANKÇILIĞI

2015-ci ildə "PAŞA Bank" ASC istehsalata təkan verən, məşğulluğu artıran və yüksək səviyyədə əlavə dəyər yaradan layihələri maliyyələşdirmə sahəsində böyük fəallıq göstərmişdir. Bank istənilən bazar şəraitində Azərbaycan iqtisadiyyatının artımına və inkişafına dəstək verən əsas qüvvələrdəndir.

"PAŞA Bank" ASC, müştərilərlə fərdi münasibət üzrə sadiq menecerlər heyətini, hərtərəfli məhsul çeşidini və səmərəli biznes prosesləri səfərbər etməklə eyniliklə böyük müəssisələr və kiçik sahibkarlıq subyektləri üçün ehtiyaclara uyğun müəyyən edilmiş məhsullarını və xidmətlərini təmin edir. Azərbaycanın rifahı və yüksəlişinə tərəfdar olan "PAŞA Bank" ASC yüksək artımla inkişaf edən iqtisadiyyat sahələrində dərin səriştəyə yiyələnib. Orta sahibkarlıq subyektlərinin böyüməsinə genişçeşidli maliyyə xidmətləri və bank məhsulları vasitəsilə dəstək verməklə "PAŞA Bank" ASC ölkə iqtisadiyyatının həmçinin şaxələnməsinə töhfə verir.

Layihələri maliyyələşdirmə

2015-ci ildə "PAŞA Bank" ASC istehsalata təkan verən, məşğulluğu artıran və yüksək səviyyədə əlavə dəyər yaradan layihələri maliyyələşdirmə sahəsində böyük fəallıq göstərmişdir. Bank müştərilərinin çox sayda müxtəlif layihələri üzrə marketinq və iqtisadi əsaslandırmanı, həmçinin texniki və fiskal təhlilləri aparmağa davam etmişdir. Nəticədə "PAŞA Bank" ASC Azərbaycanın sənaye inkişafına töhfə verən investisiya layihələri üçün maliyyələşmə imkanlarını təmin etmişdir.

Layihələri maliyyələşdirmə yaxın gələcəkdə "PAŞA Bank" ASC-nin mühüm fəaliyyət istiqamətlərindən biri kimi qalacaq. Bank, real sektora zəruri olan vəsaiti ötürməklə ölkə iqtisadiyyatı üçün taleyüklü sahələrdə layihələri maliyyələşdirmə baxımından aparıcı mövqeyini qorumaq niyyətindədir.

İNVESTİSİYA BANKÇILIĞI

2015-ci ildə "PAŞA Bank" ASC-nin investisiya bankçılığı heyəti yeni investisiya məhsullarını və xidmətlərini tətbiq etmişdir. Azərbaycan iqtisadiyyatı böyüdükcə və şaxələndikcə bank gələcək artım imkanlarını məhz bu sahədə görür.

2015-ci ilin dördüncü rübündə təsis edilməsinə baxmayaraq İnvestisiya Bankçılığı Departamenti geniş çeşiddə məhsul və xidmət göstərir. Bu dəstə aşağıdakılar daxildir:

- Təsbit gəlirli məhsullar: istiqrazların yerli və beynəlxalq bazarlarda alışı və satışı;
- Brokerlik: broker xidmətlərinə çıxış, repo (əks alış) və aktiv əsaslı kreditləşmə vasitəsilə borc (kredit) vəsaitinə arxalanma, hesabların aparılması, əqdləşmələr üzrə hesablaşmalar, alınacaq vəsaitin (debitor borcunun) yığılması və əlaqədar məsləhət xidmətləri;
- Qapalı (özəl) səhm payında iştirak: "PAŞA Kapital" QSC* regiondan olan müxtəlif şirkətlərə səhmdar kapitalın təmin edilməsi məsələlərində məsləhət verir;
- Tədqiqat: "PAŞA Kapital" QSC-nin işçi heyəti qlobal və ölkədaxili kapital bazarlarındakı əsas hadisələri əhatə edən həftəlik şərhi hesabat hazırlayır;
- Məsləhət xidmətləri: digər məsələlərlə yanaşı kapital strukturunun optimallaşdırılması, reytinqin müəyyən edilməsi, səhmdar kapitalın və borc vəsaitinin maliyyələşdirilməsinə dair institusional müştərilərə məsləhətin verilməsi.

İnvestisiya bankçılığı heyəti aşağıdakılarla birlikdə 2015-ci ildə yeni məhsul və xidmətlərə başlamışdır:

- Kapitalla təmin edilmiş əmtəə əsaslı borc vərəqəsi;
- Təməl istiqraz portfelinə bağlı xarici valyuta ilə forvard (gələcək tarixli) əməliyyatı;
- Avroda zəmanət verilmiş gəliri olan istiqraz portfelinin kredit (borc vəsaiti) hesabına alınması.

"PAŞA Kapital" QSC son iki il Bakı Fond Birjasında dövriyyə həcmi baxımından ən böyük broker olmuşdur. 2015-ci ildə "PAŞA Kapital" QSC ticarət həcminin cəmi 1,593,418,183.50 manat göstərmişdir. Şirkət elektron ticarət platforması vasitəsilə fond birjası və Milli Depozit Mərkəzinə birbaşa çıxışa malikdir.

Azərbaycan iqtisadiyyatı böyüdükcə və şaxələndikcə "PAŞA Bank" ASC-nin investisiya bank xidmətləri və məhsullarını tələb edən layihələri də artacaq. Bankın möhkəm nüfuzu və olduqca bacarıqlı peşəkar heyəti onun bu strateji sahədə yaxşı mövqe tutmasının təminatıdır.

*Azərbaycan qanunvericiliyinə əsasən banklar müştərilərə broker və investisiya xidmətlərini göstərə bilməzlər. Beləliklə, "PAŞA Kapital" QSC "PAŞA Holdinq" MMC-nin törəmə qurumu kimi müştərilərə investisiya və əlaqədar məsləhət xidmətlərini göstərir.

XƏZİNƏDARLIQ

2015-ci ilin sonuna olan vəziyyətə əsasən "PAŞA Bank" ASC-ə məxsus olan ümumi aktivlərin 56.7%-i təşkil edən 1,299.4 milyon manat məbləğində vəsaiti xəzinədarlıq idarə edirdi.

Maliyyə bazarlarındakı məzənnə dəyişmələrini yaxından izləyən "PAŞA Bank" ASC-nin Xəzinədarlıq Departamenti 2015-ci ildə alternativ investisiya alətlərindən istifadə etməklə riskləri minimuma endirmək və yüksək gəlirə nail olmağa çalışmışdır. Aktivlərin keyfiyyətini yaxşılaşdırmaqla department "PAŞA Bank" ASC-nin mənfəət göstəricisinin 2015-ci ilin hədəflərinə uyğun gəlməsində böyük xidmət göstərmişdir.

Ölkədaxili və qlobal işgüzar mühitdə baş verən son hadisələr əsnasında Xəzinədarlıq Departamenti müvafiq vaxt seçimi və alternativ investisiya imkanlarından yararlanaraq bankın balans göstəriciləri strukturunun möhkəmlənməsinə yardım etmişdir. Xərc amillərini yaxından izləməklə department ona həvalə edilmiş portfelin şaxələnməsinə davam etmişdir.

2015-ci ilin sonuna olan vəziyyətə əsasən "PAŞA Bank" ASC-ə məxsus olan ümumi aktivlərin 56.7%-i təşkil edən 1,299.4 milyon manat məbləğində vəsaiti xəzinədarlıq idarə edirdi. Bu aktivlərə 51.9 milyon manatlıq qiymətli kağızlar portfeli, həmçinin 1,021.3 milyon manat məbləğində nağd pul vəsaiti və onun ekvivalentləri və kredit təsisatlarından ödənilməli 225.8 milyon manatlıq debitor borc daxildir. Hesabat ilində "PAŞA Bank" ASC-nin faiz gəlirinin 22.2%-i (22.3 milyon manat) xəzinədarlığın portfeli təmin etmişdir.

2015-ci ildə "PAŞA Bank" ASC müvəffəqiyyətlə emissiya edilmiş və ümumi məbləği 10 milyon manat təşkil edən istiqrazlarlar üzrə son təminatçı kimi çıxış etmiş, əlavə olaraq Unibank (iki buraxılış), Finca, AG Bank, Bakcell, Access-Bank üçün gündəlik likvid vəsait təminatçısı olmuşdur və bazarı formalaşdıran qismində ilk dəfə ipoteka istiqrazlarının buraxılışını təşkil etmişdir.

Üzərimizə gələn il daha çox sayda korporativ müştərinin kapital bazarlara çıxması səbəbindən "PAŞA Bank" ASC bu sahənin böyüməsini gözləyir.

İNSTİTUSİONAL BANKÇILIQ

"PAŞA Bank" ASC ticarətin maliyyələşdirilməsi sahəsində Azərbaycanın aparıcı banklarından biridir. 2015-ci ilin sonuna olan vəziyyətə əsasən ölkənin özəl kommersiya bankları arasında ən böyük ticarətin maliyyələşdirilməsi portfeli "PAŞA Bank" ASC-ə məxsus idi ki, bunun da həcmi 263.8 milyon manat idi. Bank bu fəaliyyət sahəsində Azərbaycanın böyüyən iqtisadiyyatı ilə birlikdə yüksəlmək baxımından yaxşı mövqeyə malikdir.

Ticarətin maliyyələşdirilməsi

"PAŞA Bank" ASC müştərilərinə ticarətin maliyyələşdirilməsi üzrə genişçeşidli məhsul və xidmətlər göstərir. Bu cür ixtisaslaşmış məhsul və xidmətlərə yerli və beynəlxalq bank zəmanəti, zəmanətli akkreditiv, sənəd (malın yüklənməsi) üzrə akkreditiv, fakt əsaslı qısa-, orta- və uzunmüddətli maliyyələşmə və ixrac özü maliyyələşmə daxildir. Bank müştərilərinə ticarətin maliyyələşdirilməsi ilə əlaqədar konsultasiya və məsləhət xidmətlərini də göstərir, ticarətin maliyyələşdirilməsi məhsullarını və xidmətlərini milli, həmçinin xarici valyutada təklif edir.

Xariclə əqdləşmələrin qısamüddətli (24 ayadək) maliyyələşdirilməsi məqsədilə "PAŞA Bank" ASC təmiz ticarətin vasitəsiz maliyyələşdirilməsi xətləri vasitəsilə qlobal miqyaslı beynəlxalq tərəfdaş bank şəbəkəsi çərçivəsində müvafiq xidmətlərdən istifadə edir.

Əsasən istehsalatla bağlı mal və xidmətlərin idxalına dair xariclə əqdləşmələrin orta- və uzunmüddətli (24 aydan çox) maliyyələşdirilməsinə gəldikdə "PAŞA Bank" ASC-nin ixracın kreditləşdirilməsi üzrə Euler Hermes, SACE və OeKB kimi dünyanın aparıcı agentlikləri ilə uzunmüddətli əməkdaşlıq təcrübəsi vardır.

Bank, ümumi qaydada qəbul edilən beynəlxalq standartlara hər zaman cavab vermək məqsədilə ticarətin maliyyələşdirilməsi sahəsində qlobal təmayülləri yaxından izləyir və müvafiq məhsul və xidmətlərinin çeşidini daima yeniləşdirir.

"PAŞA Bank" ASC ticarətin maliyyələşdirilməsi sahəsində Azərbaycanın aparıcı banklarından biridir. 2015-ci ilin 31 dekabr tarixinə olan vəziyyətə əsasən ölkənin özəl kommersiya bankları arasında ən böyük ticarətin maliyyələşdirilməsi portfeli "PAŞA Bank" ASC-ə məxsus idi ki, bunun da həcmi 263.8 milyon manat idi. Bank bu fəaliyyət sahəsində Azərbaycanın böyüyən iqtisadiyyatı ilə birlikdə yüksəlmək baxımından yaxşı mövqeyə malikdir.

Beynəlxalq maliyyə təsisatları ilə əməkdaşlıq

2015-ci ildə "PAŞA Bank" ASC müxbir bank şəbəkəsinin genişləndirilməsi üzərində fəal iş aparmışdır. Bank ardıcıl olaraq üç il SIBOS (İsveçrə Beynəlxalq Bank Əməliyyatları Seminarı) tədbirində iştirak etmişdir və bunun sayəsində müxbir bank tərəfdaşlarının sayını artırmağa müvəffəq olmuşdur. İl ərzində "PAŞA Bank" ASC 10 maliyyə təsisatını bu şəbəkəyə əlavə etmiş, nağd pul vəsaitini idarəetmə, ticarəti maliyyələşdirmə, pul bazarları və xarici valyutada məhsullar baxımından bacarıq və qabiliyyətlərini artırmışdır.

Ölkədaxili və beynəlxalq maliyyə təsisatları ilə ərsəyə gətirilmiş möhkəm münasibətlər nəticəsində "PAŞA Bank" ASC yerli özəl və dövlət mülkiyyətində olan maliyyə təsisatlarından 52 milyon manatlıq, beynəlxalq maliyyə təsisatlarından isə 30 milyon manatlıq əmanət cəlb edə bilmişdir. Bundan başqa, Azərbaycanda kənd təsərrüfatının inkişafı üçün Dünya Bankından 4 milyon ABŞ dolları həcmində kredit xəttinin açılması təmin edilmişdir.

PAŞA PRIVATE BANKING

PAŞA Private banking bölməsi fərdi (zəngin) müştərilərə başlıca bank və ixtisaslaşmış alternativ maliyyə məhsul və xidmətlərini göstərir. Fərdi bankçılıq nüfuzdan asılı olan fəaliyyət sahəsidir. Beləliklə, "PAŞA Bank" ASC müştərilər arasında qazandığı hörmətdən yararlanaraq bu istiqamət üzrə böyüməyi planlaşdırır.

Hər bir təbəqədən olan müştəriyə müfəssəl maliyyə xidmətlərini göstərmək amalına uyğun olaraq PAŞA Private banking bölməsi:

- Azərbaycanda və ölkə hüdudlarından kənarda müştəri yönümlü maliyyə və qeyri-maliyyə xidmətlərini göstərmək;
- Mövcud xidmətlərin ən yüksək keyfiyyət standartları ilə təklifini təmin etmək;
- Uzunmüddətli, qarşılıqlı fayda verən müştəri münasibətlərini qurmaq;
- Müştərilər üçün uzunmüddətli maliyyə sabitliyini təmin etmək;
- Private banking xidmətlərini müştərinin həyatının ayrılmaz hissəsinə çevirmək;
- Müştərilərə şəxsi sərvətlərinin artmasında və qorunmasında, həmçinin bu sərvətin gələcək nəsillərə ötürülməsinin idarə edilməsində yardım etmək;
- Effektiv, müştəri yönümlü seçim yollarını tapmaq;
- Özəl kapitalı idarəetmə sahəsində Azərbaycann aparıcı bankı olmaq məqsədinə qulluq edir.

PAŞA Private banking bölməsi fərdi (zəngin) müştərilərə başlıca bank və ixtisaslaşmış alternativ maliyyə məhsul və xidmətlərini göstərir. Bu xüsusi xidmət və məhsullara aşağıdakılar daxildir:

- Bank əmanət qutuları;
- Yerli şirkətlərin qiymətli kağızları;
- Əlvan metallar üzrə beynəlxalq bank hesabı;
- Əmanət xidmətləri;
- Mobil bankçılıq;
- İnternet bankçılıq;
- Kredit xətti (borclanma həddi);
- Pul təminatlı kreditlər;
- İpoteka məhsulları;
- Maliyyə məsləhət xidmətləri;
- Qeyri maliyyə xidmətləri, o cümlədən, daşınmaz əmlak, səhiyyə və təhsillə əlaqədar xidmətlər;
- Qlobal konsyerj (müşayiət) xidmətləri.

Bütövlükdə bu sahə üzrə bazar payının qorunması və artırılması starteji prioritetinə uyğun olaraq PAŞA Private banking bölməsi artıq 2015-ci ildə mövcud olan tutarlı təmələ arxalanaraq təəssüratlandırıcı artım göstəricisinə nail olmuşdur. Bankın üstün müştəri bazası və idarəetmədə olan aktivlərinin (İOA) həcmi müvafiq olaraq 92% və 188% böyüməklə gəlirlərin daha sürətli artımına səbəb olmuşdur. Bu dayanıqlı nəticələr İOA-nın daha səmərəli təşkil və idarə edilməsindən, həmçinin əvvəlki illərdə brend və nüfuzun yaradılmasına yatırılmış vəsaitin bəhrəsindən xəbər verir.

PAŞA Private banking bölməsi dəyərli müştərilərin xoş vaxt keçirmək, yeni münasibətlər qurmaq və yenilikləri mənimsəmək üçün imkan yaradan tədbirlərin müntəzəm qaydada təşkil edilməsinə böyük əhəmiyyət verir.

2015-ci ilin yanvar ayında dünyanın əmlak məsələləri üzrə aparıcı müsətqil şirkəti və bankımızın çox hörmətli tərəfdaşı Knight Frank ilə birlikdə Private banking bölməsinin müştəriləri üçün üç istiqaməti araşdırmaq məqsədilə eksklyuziv səyahət təşkil edilmişdir. Hər bir istiqaməti təmsil edən məruzəçilər Karib adalarının gözəlliklərini, Fransa və İtaliya mətbəxinin təmalarını və Himalay dağlarının rahatlandırıcı guşələrinin görünüşünü təqdim etdilər. Tədbirin sonunda iştirakçılar püşkatma yolu ilə dəyərli mükafatlar da əldə etdilər.

Bankın Private banking bölməsi nüfuza əsaslanan fəaliyyət sahəsidir. Beləliklə, "PAŞA Bank" ASC müştərilər arasında qazandığı hörmətdən yararlanaraq bu istiqamət üzrə böyüməyi planlaşdırır.

RİSKLƏRİ İDARƏETMƏ

Riskləri idarəetmə sahəsində bacarıq və qabiliyyətlərini artıraraq "PAŞA Bank" ASC həmçinin üstün praktikaları mənimsəyən və yerli bazarda gerçəkləşdirən öndər kimi korporativ əhatə dairəsini artırmağı hədəfləyir.

2015-ci ildə bankın əsas nailiyyətlərindən biri risk strategiyasının formalaşması və risklər çərçivəsinin yenilənməsi olmuşdur. Riskləri İdarəetmə Komitəsi (RİK), Kredit Komitəsi (KK) və Aktiv və passivlər üzrə Komitə (APK) bankın risk xüsusiyyətlərinə birbaşa nəzarət edirlər. "PAŞA Bank" ASC-nin baş risk inzibatçısının və Müşahidə Şurasının səlahiyyətli üzvünün bu komitələrin hər birində üzv kimi təmsil olunması ali rəhbərliyin riskləri idarəetmə işinin möhkəmləndirilməsinə və bankın institusional fərqlənmə səviyyəsinə çatmasına sadiq qalmasının nümunəsidir.

İl ərzində "PAŞA Bank" ASC kredit risklərini idarəetmə bölməsini yeni, daha üstün səviyyəyədək yüksəltmişdir. Bu, müvafiq struktur vahidlərinin kreditlərin verilməsi və qiymətləndirilməsi yanaşmasında öz əksini tapmışdır. "PAŞA Bank" ASC-də kredit risklərinin qiymətləndirilməsi ilə bağlı ən vacib dəyişmə kredit riskləri üzrə potensial itkilərin daha səmərəli qaydada hesablanması olmuşdur. Kredit riskləri ilə bağlı daha təkmil yanaşmasının müsbət təsiri qəliz bazar mühitinə ramən bankın möhkəm maliyyə nəticələrində və bank aktivlərinin yüksək keyfiyyətində özünü biruzə vermişdir.

Riskləri İdarəetmə Departamenti üç şöbədən (kredit riskləri, bazar riskləri və əməliyyat riskləri) ibarətdir.

Kredit Risklərini İdarəetmə şöbəsi kredit portfelinin münasib artımını təmin etmək və müvafiq risklərdən törəyə biləcək itkilər baxımından müxtəlif vəzifələri icra edir. Şöbə, kreditlərin cəld, sağlam və effektiv qiymətləndirilməsi, qərarların şəffaf, açıq və dəyər artıran tərzdə verilməsi məqsədinə nail olmağa çalışır, ölkədəki iqtisadi durumu davamlı qaydada təhlil edir, bankın kredit portfelini iqtisadiyyatın artım sahələri və ümumi strategiya ilə həmahəng hala gətirmək üçün daxili iqtisadi və sahəvi hesabatları tərtib edir.

"PAŞA Bank" ASC kredit risklərinin effektiv idarə edilməsini təmin etmək üçün müvafiq prosedurları daima təkmilləşdirməklə və yeniləşdirməklə kredit riskləri modelinin yaradılmasında, təsdiqində, sənədləşdirilməsində və tətbiqində dünya səviyyəli standartları qəbul edib.

Bankda risk mövqeyini müntəzəm qaydada qiymətləndirmək üçün bir sıra dövri daxili hesabatdan istifadə edilir. Tam avtomatlaşdırılmış, real rejimdə fəaliyyət göstərən və bir neçə proqram təminatını dəstəkləyən hesabat sisteminin əməli şəklə salınması istiqamətində iş aparılır. Yeni sistem mövqe üzrə son hədlərə (limitlərə) nəzarət vasitələri və bu hədlərə səbəb olan hadisələr, həssaslıq və stres testlər, erkən xəbərdalıq mezanizmi və digər xüsusiyyətlərlə səciyyələnəcək.

Departamentin dünya səviyyəli standatlara nail olmaq seçiminin bariz nümunəsi bank daxili yaradılmış və icra edilmiş İnsidentləri İdarəetmə Sistemidir. Bu təşəbbüs, bankın riskləri idarəetmə sahəsində boşluqları ayırd etmək, çatışmazlıqları aradan qaldırmaq və daima təkmilləşmək yanaşmasını tətbiq etmək məsələlərini diqqət mərkəzində saxlamasında həmçinin əks etdirilir.

2015-ci ildə "PAŞA Bank" ASC-də riskləri idarəetmə sahələrinin hər birində potensialın gücləndirilməsi baş tutmuşdur. Bununla belə, üstün qlobal təcrübələrə əsaslanan, Azərbaycan bazarına və bankın fəaliyyət xüsusiyyətlərinə uyğunlaşdırılmış daxili alətlərin yaradılmasına, kredit riskləri üzrə potensial itkilərin daha səmərəli qaydada hesablanması praktikasının təkmilləşdirilməsinə və kreditlərin işlənilməsi yanaşmasının icrasına xüsusilə diqqət yetirilmişdir. COSO qaydalarına əsaslanan metodologiyanı tətbiq etməklə "PAŞA Bank" ASC-də risklərin yetişkənliyi səviyyəsinin bankdaxili ölçülməsi cari müntəzəm qaydada təkmilləşən yetişkənlik səviyyəsinin 5 ballıq şkala üzrə 3-cü pillədə qərarlaşmasından xəbər verir. Nəticə etibarilə, risklərin yetişkənliyi baxımından daha yüksək səviyyəyə çatmaq məqsədilə "PAŞA Bank" ASC bütün fəaliyyət istiqamətlərini əhatə edən müəssisədə riskləri idarəetmə (ERM) sisteminin yaradılması üzrə düzgün iş aparır.

Riskləri idarəetmə istiqamətində görülən tədbirlərin ən son nəticələrinə əsaslanaraq "PAŞA Bank" ASC bu sahədə transformasiya mərhələsinə başlayıb. Bankın riskləri idarəetmə sahəsində 2016-cı ilin əməli planında yaşanan çətin bazar mühitində yer tapan risk xüsusiyyətlərinin daha da təkmilləşdirilməsinə dair yeni imkanlar ayırd edilib. Riskləri idarəetmə sahəsində bacarıq və qabiliyyətlərini artıraraq "PAŞA Bank" ASC üstün praktikaları mənimsəyən və yerli bazarda gerçəkləşdirən öndər kimi korporativ əhatə dairəsini artırmağa hədəfləyir.

TAIB bankı satın almaqla “PAŞA Bank” ASC dünyanın ən nəhəng 20 iqtisadiyyatından biri olan qonşu Türkiyədə fəaliyyətini cəmləşdirmiş korporativ müştəriləri hədəfə almağı düşünür.

BEYNƏLXALQ FƏALİYYƏT

ÖLKƏDAXİLİ VƏ BEYNƏLXALQ İNKİŞAF

Şəffaf biznes praktikası və etik yanaşma ilə müşayiətdə korporativ, kommersiya və investisiya bank xidmətlərini göstərməklə "PAŞA Bank" ASC regionun artan ticarət və investisiya axınlarının astanasında qərarlaşmaqdadır. Azərbaycan, Türkiyə və Gürcüstan arasında genişlənən iqtisadi fəaliyyəti nəzərə almaqla bankın Müşahidə Şurası müştərilərimizin cari və mümkün bank ehtiyaclarını qarşılamaq üçün bu bazarlara çıxmasının onların mənafeyinə ən yaxşı qaydada cavab verməsi qərarına gəlmişdir.

"PAŞA Bank" ASC 2013-cü ilin fevral ayında ilk törəmə bankını Tiflisdə (Gürcüstan) açmışdır. Beləliklə, iki ölkə arasında artan ticarət həcmi, həmçinin bu ölkələrin strateji regional layihələrdə birgə iştirakı daxil olmaqla bir sıra səbəbdən bankın xaricdə fəaliyyətə başlaması baxımından ilk ölkə kimi Gürcüstan seçilmişdir. Hazırda "PAŞA Bank" ASC-nin müştəriləri ilə yanaşı bir çox Azərbaycan şirkəti Gürcüstanda fəaliyyət göstərir. Bankın Gürcüstandakı törəmə qurumu mövcud müştərilərə daha yaxşı xidmət göstərmək, həmçinin müştəri bazasını genişləndirmək üçün daha rahat şərait təmin edir. Bu təşəbbüsdən irəli gələn digər başlıca məqsəd Azərbaycan və Gürcüstan iqtisadiyyatının inkişafına töhfə verməkdir.

Dünyanın ən nəhəng 20 iqtisadiyyatından biri olan Türkiyə bazarına çıxış imkanlarının hamısını diqqətlə nəzərdən keçirdikdən sonra "PAŞA Bank" ASC-nin Müşahidə Şurası TAIB bankında nəzarətedici sahib pay almaq və Aksoy Holdinq şirkəti ilə tərəfdaş olmaq qərarına gəlmişdir. Aksoy Holdinq şirkəti

və bank arasında uzunmüddətli, etibara əsaslanan işlək münasibətlərin olmasından bu əqdləşmə mövcud tərəfdaşlığın təbii qaydada genişlənməsinə dəlalət edirdi. Beləliklə, "PAŞA Bank" ASC və Aksoy Holdinq etibarlı tərəfdaşlıqdan yararlanaraq, həmçinin hazırda mövcud olan fəaliyyət göstərmək sərişdəsi və bazar kapitalının əsasında daha da böyümək baxımından birdəfəlik və bənzərsiz imkanı qaçırmadılar.

2014-cü ilin dekabr ayında Türkiyə Bankların Tənzimlənməsi və Banklara Nəzarət Agentliyi (BRSA) TAIB bankında nəzarətedici sahib payı Aksoy Holdinq şirkətindən almış "PAŞA Bank" ASC-ə Türkiyə bazarına çıxmaq icazəsini verdi. Bu satınalma ilə "PAŞA Bank" ASC Türkiyədə fəaliyyətini cəmləşdirmiş korporativ müştəriləri hədəfə almağı düşünür. Türkiyə bazarında Azərbaycan, Gürcüstan və bölgənin digər ölkələrinə sərmayə qoyuluşu imkanlarının axtarışında olan kiçik və orta müəssisələr üçün böyük potensial vardır. Bundan başqa, bank Azərbaycandan olan sərmayə axınını Türkiyəyə yönəldərək yerli layihələrin yaratdığı hədsiz potensialı daha dolğun qaydada gerçəkləşdirməyə çalışır.

"PAŞA Bank" ASC Türkiyə iqtisadiyyatına yeni birbaşa xarici investisiyanın xüsusilə Azərbaycandan cəlb edilməsinin hər iki ölkənin iqtisadiyyatına bəhrə verəcəyinə inanır. Bu həmçinin bankın böyüməsi, fəaliyyətinin cari və mümkün müştərilərinin ehtiyaclarını qarşılamaq üçün genişləndirilməsi baxımından əla imkan yaradacaq.

DAYANIQLI İQTİSADİ İNKİŞAFA DƏSTƏK

Ölkənin artan iqtisadiyyatına dəstək olaraq "PAŞA Bank" ASC KOS-ların institusional inkişafına və maliyyə savadlığına töhfə verir. Bank ölkə iqtisadiyyatının artımına təkan verəcək əsas qüvvə kimi KOS-ları görür və onlarla birgə böyümək yollarının axtarışındadır.

Qiymətli Kaqızlar üzrə Dövlət Komitəsi (hazırda Maliyyə Bazarlarına Nəzarət Palatası və ya MBNP) ilə tərəfdaşlıq çərçivəsində "PAŞA Bank" ASC Azərbaycanda maliyyə xidmətləri və qiymətli kağızlar bazarının yaxşılaşmasına və inkişafına qulluq edən proqramlar həyata keçirir. Bu səylərin məqsədi Azərbaycanı beynəlxalq kapital bazarlarına daha dərin inteqrasiya etməkdir.

2015-ci ildə "PAŞA Bank" ASC "Bakı və Londonda kapitalın cəlb edilməsi: yeni imkanlar" mövzusunda konfrans keçirmək üçün tərəfdaş kimi KPMG beynəlxalq peşəkar xidmətlər şirkətini seçmişdir. Tədbir fond birjalarında səhmlərin açıq yerləşdirilməsi və formalaşan bazarlarda kapitalın cəlb edilməsi imkanları ilə bağlı son təmayüllər üzərində cəmləşmişdir. Məruzəçilər London Fond Birjasından, Bakı Fond Birjasından, KPMG-dən nümayəndələr və kapital bazarları üzrə digər ekspertlərdən ibarət idilər.

"PAŞA Bank" ASC və Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyası birləşərək formalaşan bazarlarda dalğalanma (qeyri-sabitlik) dövrünün yaratdığı imkanlar mövzusunda seminar təşkil etmişdirlər. Zamanında keçirilmiş tədbir qlobal və regional iqtisadiyyatda son hadisələr və işgüzar fəaliyyətin dayanıqlı əsasda aparılması mərhələləri üzərində cəmləşmişdir, digər iştirakçılarla yanaşı yerli işgüzar dairələr, araşdırma mərkəzlərinin nümayəndələri, KİV üzvləri tərəfindən alqışla qarşılanmışdır. Milli Məclis, İqtisadiyyat və Sənaye Nazirliyi (hazırda İqtisadiyyat Nazirliyi), Strateji Araşdırmalar Mərkəzi və digər təsisatların nümayəndələri iqtisadiyyatın dalğalandığı dövrlərlə bağlı fikirlərini bildirmişdirlər, irəliyə aparan yolları müzakirə etmişdirlər.

KOS-larda maliyyə savadlılığı

Azərbaycan iqtisadiyyatına dəstək olaraq "PAŞA Bank" ASC KOS-ların institusional inkişafına və maliyyə savadlığına töhfə verir.

Bank, yerli və beynəlxalq təşkilatların, o cümlədən Beynəlxalq Maliyyə Korporasiyasının (BMK), Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının, Azərbaycan Respublikasının Mərkəzi Bankının istirakı ilə müxtəlif sənayerlərdən olan KOS-lar üçün seminarlar keçirir.

The Economist jurnalı ilə birgə tədbirlər

2013-cü ildən "PAŞA Bank" ASC tərəfdaşları ilə birlikdə sənaye ekspertlərinin iştirakı ilə plenar müzakirələr vasitəsilə iqtisadi riskləri və vəziyyətin inkişaf ehtimallarını (ssenariləri) təhlil etmək məqsədilə dəvətnamə əsaslı tədbirlər təşkil edir. Bu tədbirlər, Azərbaycan və Xəzər bölgəsində fəaliyyət göstərən biznes rəhbərlərinin üzləşdikləri strateji qərarlar qarşısındakı qlobal risklər və hadisələr əsnasında inkişaf perspektivləri üzərində cəmləşir.

2014-cü və 2015-ci ildə "PAŞA Bank" ASC bir sıra ölkədən olan qərarverən, investor və qeyri-hökumət təşkilatının bir araya gələrək Azərbaycanın iqtisadi artımını sürətləndirmək imkanlarını müzakirə etdikləri Azərbaycan İnvestisiya Sammitini təşkil etmək üçün tərəfdaş kimi dünya şöhrətli Economist Group şirkətini seçmişdir.

BEYNƏLXALQ NÜFUZ

Dəyişkən il ərzində "PAŞA Bank" ASC beynəlxalq agentliklərinin möhkəm kredit reytinqi və stabil perspektivi ilə tanınan krediti ödəmə qabiliyyətini qoruya bilmişdir. Əlavə olaraq bank, fəaliyyətinin üstün olmasının beynəlxalq miqyasda tanınması kimi bir sıra mötəbər mükafatlar almışdır.

Kredit reytinqləri

2015-ci ildə bazar mühiti bir çox çağırışların baş verməsindən dəyişkən şəkildə olsa da "PAŞA Bank" ASC beynəlxalq agentliklər tərəfindən etiraf edilən krediti ödəmə qabiliyyətini qoruya bilmişdir.

2015-ci ildə Standard & Poor's reytinq agentlizi "PAŞA Bank" ASC-ə stabil perspektivli BB-' uzunmüddətli və 'B' qısamüddətli qarşı tərəf kredit reytinqi dərəcəsini təyin etmişdir. Həmin ilin noyabr ayında Fitch Ratings bankın uzunmüddətli xarici valyuta üzrə emitentin defolt reytinqini (IDR) 'B+' dərəcəsindən 'BB-' dərəcəsinədək artırmışdır, qısamüddətli IDR-i isə 'B' dərəcəsində təyin etmişdir. Bu, 100% yerli kapitalla işləyən Azərbaycan kommersiya bankları arasında ən yüksək, ölkənin özəl bankları arasında isə ikinci ən yüksək reytinq dərəcəsidir.

Mükafatlar, tədbirlər və sponsorluq

Ölkənin aparıcı maliyyə təsisatı qismində "PAŞA Bank" ASC qlobal maliyyə dairələrinin ən çox tanınmış bəzi üzvlərinin diqqətini cəlb etməkdədir. 2015-ci ildə bank, fəaliyyətinin üstün olmasının beynəlxalq miqyasda tanınması kimi bir sıra mötəbər mükafat almışdır:

- Global Finance jurnalı "PAŞA Bank" ASC-i "Azərbaycanın ən yaxşı bankı" adı ilə təltif etmişdir;
- EMEA Finance jurnalı "PAŞA Bank" ASC-i əvvəlki il olduğu kimi 2015-ci ildə Europe Banking Awards 2015 təltifi çərçivəsində "Azərbaycanın ən yaxşı bankı" adına layiq görmüşdür;
- Azərbaycan Mikromaliyyə Assosiasiyası (AMFA) "PAŞA Bank" ASC-i "İlin iştirakçısı" və "Gender bərabərliyini təbliğ edən aparıcı şirkət" mükafatları ilə təltif etmişdir;
- 2015-ci ildə Marketing Kingdom Baku tədbirində "PAŞA Bank" ASC-nin insan resursları heyətini "İlin HR komandası" mükafatı ilə təltif etmişdir.

"PAŞA Bank" ASC beynəlxalq miqyasda nüfuzunu və tanınmasını artıran mühüm yerli və beynəlxalq tədbirlərin sponsorluğuna da davam etmişdir. Bu tədbirlərə aşağıdakılar daxil idi:

- Azərbaycanın maliyyə bazarları mövzusunda seminar (London, Birləşmiş Krallıq, 27 yanvar 2015-ci il) – təşkilat və sponsor dəstəyi;
- Azərbaycan bank və maliyyə forumu (Bakı, Azərbaycan) – təşkilat və sponsor dəstəyi;
- Xəzər enerji forumları (Bakı, Azərbaycan) - təşkilat və sponsor dəstəyi;
- The Economist jurnalının təşkilatçılığı ilə Azərbaycan investisiya sammiti (Bakı, Azərbaycan) – təşkilat və sponsor dəstəyi;
- "Böhran yeni imkanlar yaradır" mövzusunda seminar (Bakı, Azərbaycan) - təşkilat və sponsor dəstəyi;
- P World şirkətinin təşkilatçılığı ilə Marketing Kingdom tədbiri (Bakı, Azərbaycan) – sponsor dəstəyi;
- Asiya İnkişaf Bankının illik toplantısı – iştirak;
- Avropa Yenidənqurma və İnkişaf Bankının illik toplantısı – iştirak;
- ABŞ-Azərbaycan bank və maliyyə forumu (Nyu-York, ABŞ) – təşkilat və sponsor dəstəyi;
- London Fond Birjasının Maliyyə bazarları forumu (Bakı, Azərbaycan) – təşkilat və sponsor dəstəyi;
- Amerika Ticarət Palatasının və Britaniya Biznes Qrupunun Azərbaycandakı nümayəndəlikləri – rəsmi naharlarda təqdimatlar;
- SIBOS sərgiləri – iştirak;

- Dayanıqlı inkişaf və korporativ sosial məsuliyyət mövzusunda konfrans (Bakı, Azərbaycan) – sponsor dəstəyi;
- Bakıda İtaliya həftəsi (Bakı, Azərbaycan) – sponsor dəstəyi;
- Muğam festivalı (Bakı, Azərbaycan) – sponsor dəstəyi;
- P World şirkətinin təşkilatçılığı ilə insan resursları sahəsində təcrübə mövzusunda tədbir (Bakı, Azərbaycan) – təşkilat və sponsor dəstəyi;
- ABŞ-Azərbaycan Ticarət Palatasının təşkilatçılığı ilə Azərbaycanda ticarət missiyası – təşkilat və sponsor dəstəyi;
- "BakıTel" beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi (Bakı, Azərbaycan) – iştirak;
- İxracın stimullaşdırılması mövzusunda seminar (Bakı, Azərbaycan) – təşkilat dəstəyi;
- Bakı əcnəbilər icmasının üzvləri üçün milad bazarı – sponsor dəstəyi.

DƏSTƏKLƏYİCİ BÖLMƏLƏR

2015-ci ildə "PAŞA Bank" ASC Beynəlxalq Faktorlar Assosiasiyasının (Factors Chain International) Azərbaycandan ilk və yeganə üzvü olan bank idi. Ölkədaxili bazar mühitini faktorinq xidmətləri üçün yetişmiş hesab edən "PAŞA Bank" ASC bu aparıcı sahədə fəaliyyətini artırmaq niyyətindədir.

Factoring

2015-ci ildə "PAŞA Bank" ASC Azərbaycanda faktorinq xidmətlərini göstərən ilk maliyyə təsisatı oldu. Hazırda bank ölkədaxili faktorinq, güzəştli hesab-fakturalar, təchizat zəncirinin maliyyələşməsi, ixrac və idxal üzrə faktorinq daxil olmaqla bütün növ faktorinq xidmətlərini/məhsullarını təklif edir.

2015-ci ildə "PAŞA Bank" ASC Beynəlxalq Faktorlar Assosiasiyasının (Factors Chain International, FCI) Azərbaycandan yeganə üzvü olan bank idi. FCI dünyanın aparıcı faktorinq şirkətlərinin qlobal şəbəkəsidir. Bunun sayəsində "PAŞA Bank" ASC 90 ölkədə 400-dən çox faktorinq xidməti/məhsulu təminatçısına çıxış əldə edib.

Faktorinqə dair əsas tələblər aşağıdakılardan ibarətdir:

- satıcı (təchizatçı) və alıcı (borclu) arasında müqavilə;
- satıcı (təchizatçı) və alıcı (borclu) arasında müəyyən vaxtı əhatə edən kommersiya münasibətlərinin təsdiqi;
- satıcı (təchizatçı) və alıcı (borclu) arasında mallar və xidmətlərin təchizatını təsdiqləyən təslim-təhvil aktı;
- müqavilə ilə tələb edilən bütün hesab-fakturaların, həmçinin digər köməkçi (müşayiətedici) sənədlərin banka təqdim edilməsi.

Faktorinqin üstünlükləri aşağıdakılardır:

- kreditə (sonradan ödəmək şərtilə) satış məbləğinin 90%-dək nisbətini dərhal almaq imkanı;
- dövriyyə vəsaitinin münasib maliyyələşmə şərtləri hesabına artırılması;
- təyin edilmiş maliyyə vəsaiti və uzunmüddətli ödəniş şərtləri;
- alınacaqlar və ödənişlər üzərində artırılmış kredit nəzarəti;
- təchizatçı və alıcı arasında etibara əsaslanan münasibətlərin dəstəklənməsi.

Faktorinq xidmətləri/məhsulları Azərbaycanda fəaliyyət göstərən kiçik və orta müəssisələr üçün çox uyğundur, onlar üçün girov əsaslı ənənəvi kreditləşmə ilə müqaysədə daha münasib şərtlərlə maliyyə vəsaitinə çıxışı təmin edir. "PAŞA Bank" ASC bu istiqamətdə fəaliyyətinin yaxın illərdə artmağa davam etməsini gözləyir.

İnformasiya texnologiyaları

"PAŞA Bank" ASC fəaliyyətinin istənilən tərəfi baxımından göstərdiyi xidmətlərin sürətini və keyfiyyətini yüksəldəcək üstün texnologiyalarla işləyir ki, müştəri və işçi məmnunluğu maksimum səviyyədə təmin edilsin.

"PAŞA Bank" ASC-nin İnformasiya Texnologiyaları Departamenti bankdakı sistemlər, rabitə xətləri, təhlükəsizlik və proqram təminatı infrastrukturuna görə cavabdehdir. Departamentə həmçinin "PAŞA Bank" ASC sisteminin infrastrukturuna əlavə edilmiş vahid tətbiqi bank proqramının həftənin yeddi günü, günün 24 saaatı ərzində qüsursuz, sürətli, yoxlanılan, genişlənən və daima nəzarət edilən fəaliyyətini təmin etmək tapşırığı verilib.

2015-ci il ərzində "PAŞA Bank" ASC həyata keçirdiyi biznes proseslərinin beynəlxalq standartlara cavab verməsinə şərait yaratmaq məqsədilə müxtəlif səylər göstərməklə texnologiyalarını təkmilləşdirməyə və yeniləməyə davam etmişdir. Həmin il departamentin layihələri aşağıdakılardan ibarət olmuşdur:

2015-ci il ərzində "PAŞA Bank" ASC həyata keçirdiyi biznes proseslərinin beynəlxalq standartlara cavab verməsinə şərait yaratmaq məqsədilə müxtəlif səylər göstərməklə texnologi-yalarını təkmilləşdirməyə və yeniləməyə davam etmişdir. Bank texnologiyaları və innovasiyaları strateji vəzifə kimi qəbul edir.

- "PAŞA Bank" ASC-nin fəaliyyətinin arasıkəsilməzliyini təmin etmək məqsədilə Bakının iki fərqli məkanında yerləşəcək, biri qəza ilə üzləşdikdə belə ikincisi işinə davam edəcək iki məlumat mərkəzindən ibarət olan Stretched Data Center (səpələnmiş məlumat mərkəzi) layihəsi vasitəsilə yeni, olduqca əlçatan informasiya texnologiyaları sistem infrastukturunun yaradılması;
- Bütün sistemlərin müntəzəm qaydada yaradılan surətinin (dublikatının) işlənilməsinin tamamlanması;
- Bütün tətbiqi internet proqramlarının daha rahat və təhlükəsiz sayılan https rabitə formatına keçirilməsi.

Təsis edildiyi tarixdən "PAŞA Bank" ASC Azərbaycan bank sahəsində texnoloji dönüşlərdən innovativ məhsul və xidmətlərədək müxtəlif yenilikləri tətbiq edib. 2015-ci ildə "PAŞA Bank" ASC Vergilər Nazirliyi kimi müxtəlif dövlət/hökumət qurumlarından daxil olan əmrlərin/tapşırıqların işlənilməsini tam avtomatlaşdıra bilmiş ilk Azərbaycan bankı oldu.

"PAŞA Bank" ASC-nin informasiya texnologiyaları heyəti həmçinin əsas bank işi sistemində əmək haqqı modulu (Salary Module) kimi bankın əsas proseslərini avtomatlaşdırılmaq və onlara sərf edilən vaxtı azaltmaq məqsədini daşıyan bir neçə irimiqyaslı layihəni işləyib və gerçəkləşdirib. Bu səylər resursların daha da optimallaşdırılması və əlaqəli biznes proseslərin yeni səmərəlilik səviyyəsinədək artırılması ilə nəticələndi.

Müştərilərinə bütün platformalardan arasıkəsilməz, hərtərəfli xidmətlərin göstərilməsinə sadiq qalan "PAŞA Bank" ASC 2015-ci ildə bank xidmətlərinə internet və mobil bankçılıq vasitəsilə məsafədən qoşulmaq imkanının yaradılmasında vacib irəliləyişə nail olmuşdur. Həmin il "PAŞA Bank" ASC korporativ müştərilərə işçilərinin əmək haqqı ödənişlərini Azərbaycan bank sektorunda ilk dəfə olaraq internet bankçılıq xidmətini göstərən filialdan rəsmiləşdirmək imkanını yaratmış internet bankçılıq funksiyasını işə salmışdır.

Mobil platformalar vasitəsilə müştəriyə daha yaxın olmaq istiqamətində sürətlə inkiaf edən "PAŞA Bank" ASC loro (sifarişli müxbir) hesabdan kart hesabına bankdaxili ödənişlərin və onlayn pul köçürmələrinin edilməsinə şərait yaradan bağlantı proqramını (interface) işləmişdir. Bununla müştərilər ölkədaxili ödəniş formasını doldurmaq tələbindən azad edilmişdirlər, ödənişlərin işlənilməsi müddəti isə qısaldılmışdır.

2015-ci ildə "PAŞA Bank ASC müştərilərinə kredit kartları üzrə faktiki qalıq məbləğini internet bankçılıq xidmətini göstərən filialdan müraciət əsasında öyrənmək imkanını təmin etdi.

Üzərimizə gələn il "PAŞA Bank" ASC rəqəmsal, xüsusilə mobil bankçılığın vüsət tapdığı bazar şəraitində texnologiyalar və innovasiyalar sahəsində səylərini artırmağı planlaşdırır.

“PAŞA Bank” ASC 2015-ci ildə ənənəvi korporativ sosial məsuliyyət modelindən maraqlı tərəflərin fəal cəlb edilməsindən ibarət daha müasir yanaşmaya keçmişdir. Bununla bank öz səylərini Azərbaycan xalqının güzəranını artırmaq məqsədilə sahibkarlıq, insan kapitalı, layiqli idarəçilik və potensialın gücləndirilməsi üzərində cəmləşdirəcək.

KORPORATİV SOSİAL MƏSULİYYƏT

KORPORATİV SOSİAL MƏSULİYYƏT

Nümunəvi korporativ vətəndaş amalına sadiq qalan "PAŞA Bank" ASC sosial məsuliyyətə yüksək önəm verir və fəaliyyət göstərdiyi cəmiyyətin bir hissəsi olmağa xüsusi diqqət yetirir. Təsis edildiyi tarixdən "PAŞA Bank" ASC cəmiyyətdə vəziyyəti önləyən, əməkdaşlıq və birgə iş naminə vəzifələr icra edib, Azərbaycan xalqının rifahının təmin edilməsini və ölkənin yaşamaq və işgüzar fəaliyyətlə məşğul olmaq üçün daha yaxşı məkana çevrilməsini dəstəkləmək məqsədinə qulluq edib.

Bugünkü dəyişkən və sürətlə qloballaşan dünyada hər-hansı müəssisə və ona aid olan maraq dairələri uzunmüddətli artımı təmin etmək məqsədilə eyni yolla addımlamalıdırlar. Bunun üçün "PAŞA Bank" ASC 2015-ci ildə ənənəvi korporativ sosial məsuliyyət modelindən maraqlı tərəflərin fəal cəlb edilməsindən ibarət daha müasir yanaşmaya keçmişdir. Bununla bankın Azərbaycan xalqının güzəranının yaxşılaşdırılması dəstixəttinindən kənara çıxmaması təmin ediləcək.

"PAŞA Bank" ASC-nin yeni korporativ sosial məsuliyyət yanaşmasının hər bir cəhəti aşağıdakı üç istiqamətdən qaynaqlanır:

- Sahibkarlığı səlahiyyətləndiririk.
- İnsan kapitalını səlahiyyətləndiririk.
- Keyfiyyətli idarəçiliyi və potensialın gücləndirilməsini səlahiyyətləndiririk.

Sahibkarlığı səlahiyyətləndiririk

Bu istiqamət, hazırki müştərilərə effektiv xidmət göstərməklə və müştəri bazasını genişləndirməklə KOSsektorunu dəstəkləməkməqsədini daşıyır. "PAŞA Bank" ASC iştirak haqqını ödəyə bilməyən və ya işçi heyət üzvlərini potensialın gücləndirilməsi və bacarıqların artırılması mövzusunda müxtəlif təlimlərə göndərə bilməyən KOS sektorundan olan müştəriləri üçün seminarlar təşkil edir. Bankın "Məsuliyyətli biznes: inkişaf üçün yerli potensialın yaradılması" seminarları yerli peşəkar təlimçilər tərəfindən Biznesə Dəstək Mərkəzlərində və ya "Barama" İnnovasiya və Sahibkarlıq Mərkəzində aparılır. Bu tədbirlər "PAŞA Bank" brendi üzrə bəyan edilmiş müştərilərlə birgə yeni zirvələri fəth etmək vədinə həmçinin uyğun gəlir.

Layihələr portfeli

Müəssisənin Dayanıqlı İnkişafı Proqramı (SEDP): "Azərbaycan Gənclərinin Nailiyyəti" ictimai birliklə əməkdaşlıq çərçivəsində 2014-cü ildə başlamış bu proqram potensialın gücləndirilməsi və əlverişli mühitin yaradılması vasitəsilə gənc nəsil arasında kiçik və orta müəssisə təsis etmək mədəniyyətinə rəvac vermək və bu müəssisələrin səmərəliliyini artırmaq məqsədini daşıyır. Proqram Gəncə və Zaqatalada həyata keçirilib.

"Ideya Qazandi": Realiti şou və ölkədə ilk

belə televiziya layihəsi olan "İdeya Qazandı" yerli miqyasda yayımlanır. 10 seriya davam edən şouda gənc sahibkarlar "PAŞA Bank" ASC və uğurlu biznes sahibləri kimi böyük şirkətləri və maliyyə təsisatlarını təmsil edən investorlar qrupundan mənbə kapitalını təmin etmək üçün müvafiq ideyalarını ortaya qoyurlar. "İdeya Qazandı" işgüzar fəaliyyət sahəsində nou-hau səviyyəsini və gənclər arasında etik davranış mədəniyyətini artırmaqla sahibkarlıq, kiçik və orta müəssisələri inkişaf etdirmək məqsədinə qulluq edir.

"Barama" İnnovasiya və Sahibkarlıq Mərkəzi: 2015-ci ildən "PAŞA Bank" ASC Azərbaycanda sahibkarlıq fəaliyyətinə təkan vermək məqsədilə "Azercell Telekom" MMC tərəfindən 2009-cu ildə işə başlamış biznes inkubator layihəsi, "Barama" İnnovasiya və Sahibkarlıq Mərkəzini dəstəkləyir. Layihə üzrə başlıca olaraq İT sahəsində fəaliyyət göstərən kiçik bizneslərə törəmə (start-up) dövründə texniki və məsləhət yardımı göstərilir.

Biznes klass layihəsi: Bu layihənin əsas məqsədi yüksək səriştəli sahə peşəkarlarının apardığı maarifləndirici seminarlar vasitəsilə qeyri-neft sektorunda fəaliyyət göstərən kiçik və orta müəssisələrin işgüzarlıq qabiliyyətinin və bacarıqlarının artırılmasıdır.

İnsan kapitalına güc veririk

Bu istiqamətdə məqsəd ölkənin ən yaxşı tələbələrini banka iş praktikasına və ya işçi qismində cəlb etmək üçün seçmək və təlimləndirməkdən ibarətdir.

Layihələr portfeli

Ümumazərbaycan biznes klass müsabiqəsi (ABCC): İllik tədbir olan ABCC ölkənin əsas universitetlərini təmsil edən komandaları müxtəlif biznes sahələri üzrə biliklərini tətbiq etməklə həqiqətən baş vermiş biznes problemlərini verilmiş vaxt ərzində həll etmək üçün bir araya gətirir. Maliyyə, marketinq, mühasibatlıq, texnologiyalar və idarəetmə bilikləri olan iştirakçılar qənaətə gəldikləri çıxış yollarını Azərbaycanın müxtəlif biznes qurumlarını təmsil edən "hakimlər heyətinə" təqdim edirlər.

Canlı Bank: Bu innovativ tədbir peşəkar inkişaf mövzusunda təlim proqramına uyğun, lakin bank sektorunun əsaslarına xüsusi diqqət yetirməklə ərsəyə gətirilib. Bu təşəbbüs çərçivəsində iştirakçılar yalnız bank sənayesi ilə bağlı təlimlənmirlər, həmçinin daha yaxşı vətəndaş və daha zirək istehlakçı olmağa həvəsləndirilirlər.

İnşa Yazılışı Müsabiqəsi: Britaniya Şurası ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən bu layihə, yüksək pilləli təhsil verən təsisatların tələbələrini inşa yazılışı müsabiqəsinə cəlb etməklə iqtisadi artım və inkişaf məsələlərinin həlli məqsədilə tərtib edilib. Layihənin vəzifəsi tələbələri ölkənin gələcək iqtisadi inkişafında fəal iştirak etməyə həvəsləndirmək və dəstəkləməkdən ibarətdir. Müsabiqə qalibləri Londonun tanınmış King's College universistetində yay biznes məktəbinə getmək kimi cəzbedici imkan qazanırlar.

Tələbə Təqaüdü proqramı: 2012-ci ildən "PAŞA Bank" ASC Tələbə Gənclər Təşkilatları İttifaqı ilə tərəfdaşlıq çərçivəsində tələbə təqaüdü proqramını həyata keçirir. Proqram yerli universitetlərdə istedadlı və cəmiyyət qarşısında məsuliyyətli tələbələri, həmçinin özəl və dövlət sektorları üçün gələcəyin liderlərini yetişdirmək məqsədilə tərtib edilib. Bu təşəbbüslə təhsildə fərqlənən, liderlik potensialı və cəmiyyət qarşısında məsuliyyətini nümayiş etdirən tələbələr dəstəklənirlər.

Layiqli idarəçilik və işgüzarlığın artımına güc veririk

Bu istiqamət məlumatlılığın artırılmasına dair müxtəlif təşəbbüs və tədbirlər vasitəsilə bankın nüfuzunu dəstəkləmək məqsədini daşıyır.

Layihələr portfeli

Biznes jurnalistika: Layihənin məqsədi seçilmiş 11 jurnalistin ehtiyaclarını cavablandırmaq üçün hazırlanmış xüsusi təlim proqramı vasitəsilə milli KİV-lərin peşəkar sərişta və bacarıqlarını gücləndirməklə Azərbaycanda biznes xəbərlərinin yazılması standartlarını artırmaqdan ibarətdir. Layihə, Avropanın nəhəng KİV təşkilatlarından biri, Thomson Foundation ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir və jurnalistlər üçün Reuters, BBC, Guardian və digər aparıcı KİV qurumlarından təcrübə toplamaq imkanının gerçəkləşməsinə qulluq edir.

Orta ümumtəhsil məktəb şagirdləri və universitet tələbələri üçün maliyyə savadlılığı: "PAŞA Bank" ASC əhalinin qiymətli kağızlar bazarına dair ümumi məlumatlılıq səviyyəsini artırmaq və cəmiyyəti kapital bazarları mövzusunda maarifləndirmək məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Bankı və Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (hazırda Maliyyə Bazarlarına Nəzarət Palatası və ya MBNP) ilə sıx əməkdaşlıq edir. Eyni zamanda bank tələbələrin bilik və bacarıqlarının inkişafına yönəlmiş təşəbbüsləri də dəstəkləyir. Bankın məktəblilər üçün təşkil etdiyi "Açıq qapı günü" bu qəbildən olan maarifləndirici tədbirdir.

"PAŞA Bank" ASC Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin (hazırda Maliyyə Bazarlarına Nəzarət Palatası və ya MBNP) həyata keçirdiyi aşağıdakı layihələri həmçinin dəstəkləyir: Gəncədə "Breyn Rinq" yarışması, Azərbaycan Dövlət İqtisad Universitetində "Kapital bazarları" müsabiqəsi və "Üç ideya" müsabiqəsi. Bu tədbirlər iqtisadiyyat sahəsində savadı olan gəncləri və tələbələri sözügedən mövzulara cəlb etmək, beləliklə ölkə iqtisadiyyatında baş verən və nəticədə bəhrələnəcəkləri dəyişmələri mənimsəmək məqsədilə işlənib hazırlanır.

Bazarın zəif olduğu bir dövrdə sabit mövqeyini qorumaqla və müştəri ehtiyaclarını yerinə yetirməyə davam etməklə “PAŞA Bank” ASC müştərilərlə son illər inkişaf etdirdiyi münasibətlərdən bəhrələnmişdir. Nəticə etibarilə, 2015-ci ilin sonunda bank cəlb etdiyi əmanətlərin cəmini 1,373,113 min manat (881,181 min ABŞ dolları) həcmində bildirmişdir.

MALİYYƏ HESABATLARININ İCMALI

MALİYYƏ HESABATLARININ İCMALI

Bankların bağlanması nəticəsində olduqca qəlizləşmiş bazar şəraitində "PAŞA Bank" ASC sabitliyin dayağı mövqeyini itirməmişdir. Bank il ərzində möhkəm kapital göstəricilərini saxlayaraq müsbət nəticələr hasil etmişdir. "PAŞA Bank" ASC, onun Gürcüstandakı PAŞA Bank Georgia və Türkiyədəki PASHA Yatırım Bankası A.Ş. törəmə bankları üzrə 2014-ci ilin 31 dekabr tarixində bitmiş il üzrə əsas göstəricilər və fəaliyyət nəticələrinin seçiliş hissəsi aşağıda verilib.

2015-ci ildə "PAŞA Bank" ASC toplam səhmdar kapital baxımından Azərbaycanın ən böyük bankı mövqeyini qorumuşdur. Həmin ilin sonunda bankın bildirdiyi toplam səhmdar kapitalın həcmi 432,489 min manat (277,343 min ABŞ dolları[1]) təşkil etmişdir ki, 2014-cü ilin sonunda sözügedən göstərici 323,706 min manat (412,680 min ABŞ dolları[3]) olmuşdur.

2015-ci ilin 31 dekabr tarixinə olan vəziyyətə əsasən "PAŞA Bank" ASC aktivlərinin cəmini 2,292,739 min manat (1,470,270 min ABŞ dolları[1]) həcmində göstərmişdir ki, bu da əvvəlki ilin 1,273,258 min manat (1,623,225 min ABŞ dolları[3]) səviyyəsindən 80% yüksək idi. (Milli valyutanın 2015-ci ildə iki dəfə devalvasiyaya uğraması nəticəsində xarici valyutada ifadə edilmiş aktivlərin dəyəri 497,081 min manat artmışdır; beləliklə, mütləq artım göstəricisi 41% təşkil etmişdir.)

2015-ci ilin sonuna dəlalət edən vəziyyətə əsasən "PAŞA Bank" ASC-nin aktivləri aşağıdakı kimi təsnif edilmişdir:

- Nağd pul vəsaiti və onun ekvivalentləri – 45%
- Müştərilərə verilmiş kreditlər – 39%
- Qiymətli kağızlar portfeli – 6%
- Kredit təsisatlarından alınacaqlar – 6%
- Digər (cari və cari olmayan) aktivlər – 4%

2015-ci ildə güclü kredit artımına nail olunmuşdur. Bankın ümumi kredit portfeli əvvəlki illə müqayisədə (573,642 min manat və ya 731,313 min ABŞ dolları[3]) 66% artaraq 949,848 min manat (609,111min ABŞ dolları[1]) təşkil etmişdir. (Milli valyutanın 2015-ci ildə devalvasiyaya uğraması nəticəsində xarici valyutada ifadə edilmiş kreditlərin dəyəri 118,250 min manat artmışdır; beləliklə, mütləq artım göstəricisi 45% təşkil etmişdir.)

Kredit portfelinin itkilərinə qarşı effektiv ehtiyat dərəcəsi 5.0% (2014-cü ildə isə 6.1%) idi. 2015-ci ildə "PAŞA Bank" ASC-nin qeyri-işlək kredit portfelinin nisbi çəkisi BMHS və riskləri idarəetmə sahəsində qabaqcıl təcrübələrə əsasən 2014-cü ilin 10.76% səviyyəsindən 3.82%-dək aşağı düşmüşdür. Lakin bank, Kredit Komitəsinin və İdarə Heyətinin dərindən izlədiyi qeyri-işlək kreditlər baxımından ölkədaxili tənzimləmə və nəzarət qaydalarına uyğun olan, bununla belə daha mühafizəkar daxili metodologiyanı və yanaşmanı tətbiq edir. Sözügedən daxili yanaşmaya əsasən "PAŞA Bank" ASC-nin qeyri-işlək kredit portfelinin nisbi çəkisi ölkə-daxili bazar şəraitinin gərginliyi nəticəsində 2014-cü ilin sonuna olan 5.84%-dən 2015-ci ilin sonunda 8.68%-dək artmışdır.

Bazarın zəif olduğu bir dövrdə sabit mövqeyini qorumaqla və müştəri ehtiyaclarını yerinə yetirməyə davam etməklə "PAŞA Bank" ASC müştərilərlə son illər inkişaf etdirdiyi münasibətlərdən bəhrələnmişdir. Nəticə etibarilə, 2015-ci ilin sonunda bank cəlb etdiyi əmanətlərin cəmini 1,373,113 min manat (881,181 min ABŞ dolları) həcmində bildirmişdir. Müştərilərdən cəlb edilmiş müddətli və müddətsiz əmanətlərin nisbi çəkisi müvafiq olaraq 66% və 34% (2014-cü ildə isə 79% və 21%) təşkil etmişdir.

2014-cü ildə 2,796 min manat (3,565 min ABŞ dolları[4]) itkiyə məruz qalmış "PAŞA Bank" ASC 2015-ci ilin yekunlarına əsasən 14,383 min manat (13,984 min ABŞ dolları[2]) həcmində xalis mənfəət əldə etdiyini bildirmişdir. 2015-ci ilin yekunlarına əsasən cəmi əməliyyat gəliri əvvəlki illə müqayisədə (60,205 min manat və ya 76,753 min ABŞ dolları[4]) 93% artaraq 116,253 min manat (113,032 min ABŞ dolları[2]) təşkil etmişdir.

"PAŞA Bank" ASC 2015-ci ildə faiz gəlirini 100,280 min manat (97,501 min ABŞ dolları[2]), qeyri-faiz gəlirini isə 40,308 min manat (39,191 min ABŞ dolları[2]) həcmində bildirmişdir. Qeyri-faiz gəlirinin əməliyyat gəlirinin cəminə nisbəti 35% olmuşdur.

2015-ci ildə "PAŞA Bank" ASC korporativ müştərilərini effektiv maliyyə alətləri (məsələn törəmə valyuta alətləri) ilə təmin edirdi. Genişlənən korporativ müştəri bazası və artan mədaxil 2015-ci ilin ticari mənfəətinə müsbət töhfə vermişdir. Xarici valyuta alışı və satışı üzrə gəlirin əldə edilməsi "PAŞA Bank" ASC-ə müxtəlif müştəri tələblərini qarşılamaq üçün törəmə alətləri təklif etməklə mənfəət artımına nail olmaq şəraitini yaratmışdır. Həmin il bankın ticari mənfəəti 5,467 min manat (5,316 min ABŞ dolları) həcmində bildirilmişdir.

"PAŞA Bank" ASC 1-ci dərəcəli kapital üzrə çatarlılıq əmsalını Azərbaycan Respublikasının Mərkəzi Bankının müvafiq kapital tələbini xeyli üstələyən 17% (2014-cü ildə isə 33%) səviyəsində bildirmişdir. Bazel II və Bazel III sazişləri ölkədə tətbiq olunduqda tələb edilən kapital çatarlılığı səviyyələrinə uyğun gəlmək öhdəliyinə sadiq qalırıq. Həmçinin səhmdarlarımız üçün kapitalları müqabilində möhkəm gəlir normasını hasil etməyə sadiq qalırıq.

*Bütün göstəricilər digər tarix bildirilmədikdə 2015-ci ilin 31 dekabrına təsadüf edir və audit edilmiş məcmu maliyyə hesabatlarına əsaslanır.

* Məbləğləri manatdan ABŞ dollarına çevirmək üçün aşağıdakı məzənnələrdən istifadə edilir:

[1] 2015-ci il üzrə balans cədvəlinin müvafiq bəndləri: 1.5594 (2015-ci ilin 31 dekabr tarixinə olan valyuta məzənnəsi)

[2] 2015-ci il üzrə M/Z hesabatının müvafiq bəndləri: 1.0285 (2015-ci il üzrə orta valyuta məzənnəsi)

[3] 2 014-cü il üzrə balans cədvəlinin müvafiq bəndləri: 0.7844 (2014-cü ilin 31 dekabr tarixinə olan valyuta məzənnəsi)

[4] 2014-cü il üzrə M/Z hesabatının müvafiq bəndləri: 0.7844 (2014-cü il üzrə orta valyuta məzənnəsi)

PAŞA Bank

13, Yusif Məmmədəliyev küç.
Bakı, AZ1005, Azərbaycan
T: (+994 12) 496 50 00
F: (+994 12) 496 50 10
E: office@pashabank.az
www.pashabank.az